574:1.QXD 15.04.2024 9:43 Page 1

KÜRD xalqı mübariz və qəhrəman xalqdır
Heydər Əliyev

# DÎPLOMAT

№ 14 (574) 08-14 Aprel, Nîsan, sal, il 2024
Ji meha şûbatê sala 2003-a tê weşandin
Həftəlik İctimai-siyasi qəzet
Rojnama heftename civakî û sîyasî
Qiyməti: / Hêjaye: 40 qəpik

Bilirsən, nə etmiş kürdlər bir zaman?
Qurtarmış İslamı çox ağır dardan!
Qədim Avropanın xaçpərəstləri,
Yüz illər sındırmış göy məsçidləri.
Müsəlman keçmişin öyrənsə əgər,
Kürdün dərgahına daim baş əyər.

Səbahəddin Eloğlu



Səh. 2

Prezident İlham Əliyev Qəbələ rayonunda Bum qəsəbə tam orta məktəbinin yeni binasının açılışında iştirak edib



Səh. 2

## Nêçîrvan Barzanî: Hêvîdar im cejna xêr û xweşiyê be



Səh. 2

Serok Barzanî: Hêvîdar im ev cejn bibe sedema aramî û aştiyê bo hemû cîhan û navçeya me



Səh. 2

Mesrûr Barzanî: Hêvîdar im ev cejn bibe sedema şadî û bexteweriya gelê Kurdistanê



Səh. 18

Em Qencên Xwe Jibîr Nakin: Hemza Begê Miksî



Səh. 18

Di siyaseta Tirkiyê de erdhej û encamên nedihatin hêvî kirin (I)



Səh. 3

## Jîyana kurdûn koçber

Prezident İlham Əliyev Qəbələ Rayon Mərkəzi Xəstəxanasının açılışında iştirak edib Səh. 2

## Sarı Aşıq haqqında Səh. 4-5

Serok Barzanî di salvegera Komkujiya Enfalê de peyamek belav kir Səh. 12

Nêçîrvan Barzanî di salvegera Komkujiya Enfalê de bangî Hikûmeta Îraqê kir Səh. 11

36 sal li ser Enfala Başûrê Kurdistanê derbas bûn Səh. 17

Qədim Kürd Xalqı Dövlətləri və dövrləri! Səh. 8



Səh. 11

VƏTƏNƏ LAZIMDIR XAN HEYDƏR PAŞA



Səh. 18

Qubad Talebanî: Kurd ti carî teslîmî dîktatoriyê nebûne, teslîm nabin!



Səh. 17

Kosret Resûl: Cejn bibe qonaxek ji bo çareserkirina pirsgirêkan



Səh. 14

## BAVÊ MÎN

# Prezident İlham Əliyev Qəbələ rayonunda Bum qəsəbə tam orta məktəbinin yeni binasının açılışında iştirak edib



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev aprelin 9-da Qəbələ rayonunda 624 şagird yerlik Təbriz Yaqubov adına Bum qəsəbə tam orta məktəbinin yeni binasının açılışında iştirak edib.

Elm və təhsil naziri Emin Əmrullayev dövlətimizin başçısına məktəbdə yaradılan şərait barədə məlumat verdi.

Bildirildi ki, qəsəbədə 1983-cü ildə tikilmiş məktəb binasının müasir tələblərə cavab verməməsi və qəzalı vəziyyətdə olması yeni binanın inşası zərurətini yaratmışdı. Bum qəsəbə tam orta məktəbinin tikintisinə 2021-ci ilin dekabrında başlanılıb. Məktəb binası 26 sinif otağından, kimya, fizika və biologiya laboratoriyalarından, 2 informatika kabinetindən, 2 texnologiya otağından, gənclərin çağırışaqədərki hazırlıq kabinetindən, kitabxana, 195 yerlik akt zalı, idman zalı və 80 yerlik yeməkxanadan ibarətdir.

Yeni dövrün çağırışlarına uyğun olaraq, müasir məktəblərin qurulması Azərbaycan dövlətinin prioritetləri sırasında başlıca yer tutur. Son 20 ildə Azərbaycanın mərkəzi şəhərlərindən tutmuş ən ucqar kəndlərinə qədər yaşayış məntəqələrində 3600 yeni məktəb binası tikilib və ya əsaslı təmir olunub. Ölkəmizdə təhsil müəssisələrinin əsaslı təmiri, yenidən qurulması və yenilərinin inşası, onların zəruri tədris avadanlığı ilə təchizi gənc nəslin daha savadlı və bilikli yetişməsinə hesablanıb. Yeni məktəb binalarının və tədris korpuslarının inşası şagird sıxlığını aradan qaldırmaqla, həm də onların daha keyfiyyətli təhsil almasına şərait yaradır.

# Prezident İlham Əliyev Qəbələ Rayon Mərkəzi Xəstəxanasının açılışında iştirak edib



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev aprelin 9-da Qəbələ rayonunda 624 şagird yerlik Təbriz Yaqubov adına Bum qəsəbə tam orta məktəbinin yeni binasının açılışında iştirak edib.

Elm və təhsil naziri Emin Əmrullayev dövlətimizin başçısına məktəbdə yaradılan şərait barədə məlumat verdi.

Bildirildi ki, qəsəbədə 1983-cü ildə tikilmiş məktəb binasının müasir tələblərə cavab verməməsi və qəzalı vəziyyətdə olması yeni binanın inşası zərurətini yaratmışdı. Bum qəsəbə tam orta məktəbinin tikintisinə 2021-ci ilin dekabrında başlanılıb. Məktəb binası 26 sinif otağından, kimya, fizika və biologiya laboratoriyalarından, 2 informatika kabinetindən, 2 texnologiya otağından, gənclərin çağırışaqədərki hazırlıq kabinetindən, kitabxana, 195 yerlik akt zalı, idman zalı və 80 yerlik yeməkxanadan ibarətdir.

Yeni dövrün çağırışlarına uyğun olaraq, müasir məktəblərin qurulması Azərbaycan dövlətinin prioritetləri sırasında başlıca yer tutur. Son 20 ildə Azərbaycanın mərkəzi şəhərlərindən tutmuş ən ucqar kəndlərinə qədər yaşayış məntəqələrində 3600 yeni məktəb binası tikilib və ya əsaslı təmir olunub. Ölkəmizdə təhsil müəssisələrinin əsaslı təmiri, yenidən qurulması və yenilərinin inşası, onların zəruri tədris avadanlığı ilə təchizi gənc nəslin daha savadlı və bilikli yetişməsinə hesablanıb. Yeni məktəb binalarının və tədris korpuslarının inşası şagird sıxlığını aradan qaldırmaqla, həm də onların daha keyfiyyətli təhsil almasına şərait yaradır.

# Serok Barzanî: Hêvîdar im ev cejn bibe sedema aramî û aştiyê bo hemû cîhan û navçeya me



Serok Barzanî bi boneya hatina cejna Remezanê, peyameke pîrozbahiyê belav kir û tê de ragihand, "Ez ji Xwedayê mezin daxwaz dikim ku rojî û îbadetên hemû misilmanan qebûl bike û ev cejn bibe çavkaniya aştî û aramiyê ji bo hemû cîhanê û navçeya me."

Serok Mesûd Barzanî di peyama xwe de ragihand, "Bi boneya hatina cejna Remezanê ya pîroz, ez pîrozbahiyeke germ li hemû misilmanên cîhanê, Iraq û Kurdistanê dikim. Vê cejnê li malbatên serbilind ên şehîdan, Pêşmergeyên qehreman û hemû welatiyên Kurdistanê pîroz dikim."

Herwiha Serok Barzanî got: "Di vê boneya pîroz de, ji Xwedayê mezin daxwaz dikim ku rojî û îbadetên hemû misilmanan qebûl bike. Hêvîdar im ev cejn bibe sedema aramî û aştiyê bo hemû cîhan û navçeya me û bextewerî û aramiyê bo gelê Kurdistanê bîne."

# Nêçîrvan Barzanî: Hêvîdar im cejna xêr û xweşiyê be



Serokê Herêma Kurdistanê Nêçîrvan Barzanî bi boneya hatina cejna Remezanê, peyameke pîrozbahiyê belav kir û tê de ragihand, "Bila ev cejna pîroz û wate, armanc û peyamên wê bibe wesîleya nûkirina têkiliyên me."

Serokê Herêma Kurdistanê di peyama xwe de ragihand, "Cejna Remezanê ya pîroz bi germî li tevahiya muslimanan li Kurdistan, Iraq û cîhanê û bi taybetî li malbat û kesûkarên şehîdên serbilind pîroz dikim, cejn û bêhinvedanek hemû aramî û rihetî û bextewerî ji hemûyan re dixwazim, hêvîdar im cejna xêr û xweşiyê be."

Herwiha got: "Bila ev cejna pîroz bi wate, armanc û peyama xwe ya lihevxweşîbûn, jihevnêzîkbûn, lihevkirin, qencî û tebayî, ji bo herkesî bibe derfeta ji nûkirina pêwendî, lêborîn û hevgirtinê û em hemû bi hev re kar û hevkariyê bo xizmet û xêra gel û welatê me bikin."

Serokê Herêma Kurdistanê got jî: "Bi hêviya rojgar, rewş, jiyan û paşerojeke xweştir, cejna li hemûyan pîroz be û hemû salek bi xweşî."

# Mesrûr Barzanî: Hêvîdar im ev cejn bibe sedema şadî û bexteweriya gelê Kurdistanê



Serokwezîr Mesrûr Barzanî bi boneya hatina cejna Remezana pîroz peyamek pîroz kir û tê de ragihand, "Hêvîdar im ev cejn bibe sedema xweşî û şadî bo gelê Kurdistanê û bidawîhatina hemû şer, nexweşî û azaran li cîhanê."

Peyama Serokwezîr Mesrûr Barzanî:

"Bi boneya hatina cejna pîroz a Remezanê, germtirîn pîrozbahiyê li hemû misilmanên Kurdistan, Iraq û cîhanê dikim, bi taybetî Pêşmergeyên qehreman, hêzên asayiş û navxwe û malbatên serbilind ên şehîdan û enfalkiriyan. Hêvîdar im ev cejn bibe sedema xweşî û şadî bo gelê Kurdistanê û bidawîhatina hemû şer, nexweşî û azaran li cîhanê.

Spasiya xweragirî û bihna fireh a gelê niştimanperwer ê Herêma Kurdistanê dikim ku alîkarê me bûn ji bo derbaskirina vê rewşa dijwar a aborî. Hêvîdar im ev rêkeftin û hevtêgihiştina li gel aliyên peywendîdar ên hikûmeta federal li ser mûçe û mafên darayî yên Herêma Kurdistanê pêk hatiye, berdewam be û di paşerojê de jî mijara mûçeyan ku mafê rewa û destûrî yê gel e, têkelî ti kêşe nakokiyên siyasî neyê kirin û fermanber û mûçexurên Herêma Kurdistanê jî mehane bi wayekî asayî bi rêya aliyên peywendîdar ên Hikûmeta Herêma Kurdistanê mûçeyê xwe wergirin.

Herwiha em hêvî dikin ku ev pêşkeftin û pêngav bibin destpêka çareserkirina pirsgirêkên din ên hilawîstî û hemû pirsgirêkên mayî jî bi hevtêgihiştin û pabendbûna bi destûrê, çareser bibin.

Cejna we pîroz be û Xwedêyê mezin Kurdistanê biparêze

***Mesrûr Barzanî***
***Serokwezîrê Herêma Kurdistanê"***

# Jîyana kurdûn koçber


Ûsivê Teyfûr

## Her teyr bi refê xwe da xwaşe!

Pey hilweşandina (ruxandina) dewleta Sovêtê li cîhanêda di çarenûsa gelanda gelek guharandin û bûyer pêşda hatin.

Sînor û xerîta (nexş) dewletan,rewşa gel û mirovan,nêrînên wan,jîyan hate guharandin. Komarên ku di yekitîya Sovêtêda li ser projeyên sosîalîzmê de: her kes ji bo hemûyan, hemû ji bo her kesî,ku weha hevdu girtibûn (15 komar) û ji navendekê dihate rêvebirin ji hevdu veqetîyan, dewletên serxwebûnê ji wanra pêjda hat û herek bû dewleteke serbixwe.Lê van pêşketin û guharandina di kurdên sovêtêra tu berjewendî neanîn. Rewşa kurda xirabbû. Di hêla aborî, sosîal, civakî, ramyarî, û netewi da alozî çêbûn. Berî her tiştî di komarên sovêta berêda netewperestî û nijadperestîyê xwe da xuya kirin.Evê yekê bandorî li ser meneviyat û jîyana kurdan dikir. Kurda nikaribûn jîyanek normal û steqirî bidomînin. Di hin komaran da şer çêbûn. Di navbera Azerbaycan û Ermenîstanêda şerekî neheq dest pê kir. Ermenîstanê 20 % aqara Azerbaycanê dagir kir. Şer tu wexta rewşa gela û mirova baş nake timê kûştin, mirin, koçberî, belengazî û dijwarîyên herî giran tîne.

Vî şerîda derba herî mezin li kurda ket.Kurd li cî û warê xwe kal û bava hatin şehidandin.Belê dewleta şêwrê ji despêkê rojeke qenc boy gelê kurd nekir xêncî xirabîyê, ji dema sovêtê kurdara tu tiştê qenc nema. Kurd careke din koçberîya bê rûmetra rû bi rû man (kurdê sovêtê çar cara hatine nefîkirin)

Kurdê Ermenîstanê belayê deverên cîhanê bûn; dewletên Awropa, Avstralîya, Amêrîkayê,Kanadayê, yê zêdetir berê xwe dane Rûsîyayê, Azerbaycanê, Kazakîstanê Girqizistanê. Paş wexta boy şerê Qerebaxê kurd nekevine nav şêr boy zarokên xwe biparêzin, dubare ji Azerbaycanê barkirine Rûsia Fêdêral usaji gele koçberên kurda ji Ermenîstanê bar kirin çune Krasnodarê. Piranîya wan di gundan da cî war bûne,êwirîne. Bi malhebûn û heywanetîyêra mijûl dibin.

Di gorî hejmara binelîyên Rûsyayê îro RF heya 50 hezar kurd dijî. Di herêma Korênovskê lî gundê Platnîrovskêda heya 200 malbetê kurd cî war bûye. Pey hilweşandina tifaqa sovêtê li Azerbaycanê, Ermenîstanê li Kazaxistanê, ji Kirxizistanê û ji hin deverên din kurda koçî li vir kirine.Hemû derfetên ku li vi gundî da hene kurd li jê pêk tînin.Kurdê Platnîrovskê bi ruh û ramanên xweva bi welatê xwera ê dîrokî bi Kurdistanêra girêdayîne. Pirrê wan welatparêzin.Li vî gundî çend şervanê kurd tevî mîlîtanê niştimanê bûne. Hêvî û bawerîya li ber welat hemû kurdên vê herêmê kirîye yek,xwe parçeke Kurdistanê dihesbînîn.

Li vî gundîda mirovên têgêhîştî û welatparêz pirin; Sebrîyê Kemêl rûsipî, kurdê Qirkizistanê,Teyfûrê Evdille mele,zanyarê olî, pispor kurdê Ermenîstanê, Ismaîlê Ûsiv rewşenbîr înjînêr Ermenîstan, Letîfê Memmed rojnemavan,dîroknas ji Ermenîstanê, Taharê Newroz rewşenbîr, Rafîkê Mehmed wellatparêz,ev mirovana ji bo gelê xwe xerîb hertim dibin teyaxa menewî. Kurdên gundê Platnîrovskê ji wek hemû kurdên cîhanê hîvîdarê serxwebûna niştimana pir Pîrozin. Zûtirekê ev bextewerî wê bibe nesîbê hemû kurdên bi şeref ên ku gelê xwera û welatê xwerane. Ev kurdên koçber bûyerên ku welatê kal bavên meda li dijî gelê me ê torin û maqûl diqewime ji bo vê dewleta dagirker bi hîdet şermezar dikin. Lê îro hine mrovê dexes, mixenet,duru cîye neheq xravîyê dikine nava gel. Ew nabînin wekî Kurdistan îdî rîzgar buye, gelê kurd wê wana derxe ru û şermezarke. Bila bimirin fîtnekar,qerezkar yên ku hemberî gelê meyî evraye.Belê kurdên koçber pêşeroja xwe Kurdistanêra girêdane.

Her teyr bi refê xweva difire.Kurd li xerîbistanê tu kesîra ne pêwîstin.

**Ûsivê Teyfûr**

---

# Kürd xalqının tarixindən səhifələr

## Şəddadilər

Əsası 951-ci ildə Məhəmmməd Şəddad ben Kürdü tərəfindən qoyulmuş Şəddadilər sülaləsi 971-ci ildə Salarilər dövlətini süquta uğradıb Gəncədə hakimiyyəti ələ aldılar və Zaqafqaziyanın böyük bir hissəsində Şəddadi kürd dövlətini yaratdılar. 117 il hakimiyyətdə qalan Şəddadilər Arranı, Naxçıvanı, Sünniki, Qafanı və başqa əraziləri idarə etmiş, Dvini tutmuş, Ermənistana üç min dinar vergi qoymuşdular.

Mütərəqqi fikirli Şəddadi hökmdarları böyük quruculuq işləri aparır, mədəniyyətin inkişafına qayğı göstərirdilər. 1 Fəzl 1027-ci ildə Araz üzərində möhtəşəm Xudafərin körpüsünü tikdirmişdi. Əbdülfəttah Musanın dövründə Gəncəyə gələn Qətran Təbrizi yazmışdır: "Gəncə cənnət bağcasına dönmüşdür". "Qobusnamə"nin müəllifi Keykavus 18 il hakim olmuş Şəddadi hökmdarı Əbuləsvar Şavuru belə mədh edirdi: "Əbuləsvar böyük şah idi, dediyini eləyən, müdrik,ədalətli,ləyaqətli, şücaətli, fərasəti, dini sevən, uzaqgörən idi". Şavur saraylar, mədrəsələr, karvansaralar, hamamlar tikdirdi, məşhur Gəncə qapılarını düzəltdirdi.

1088-ci ildə Səlcuq yürüşü Şəddadilər dövlətini süquta uğratdı. Gəncəli kürdlər, necə deyərlər, qeybə çəkildilər (Bax: K. E. Bosvort. "Musulmanskie dinastii", M. 1971)

### SƏLAHƏDDİN ƏYYUBİ

Kürd maarifçi şe'ri ondan böyük sima tanımır. Bə'zi klassiklər Səlahəddini öz xalqına xidmət etməməkdə, imkanı ola-ola birləşmiş Kürdüstan dövləti yaratmamaqda günahlandırır, bə'ziləri isə kürdlərin və Kürdüstanın tənəzzülünün onun həyatdan getməsindən sonra başladığını bildirirlər.

Kürd şairlərinin münasibəti öz yerində, Səlahəddin Əyyubi dövründə şərqin ən qüdrətli sərkərdəsi və "mübahisəsiz ən böyük hökmdarı"kimi vəsf olunmuş, "müsəlman dünyasının xilaskarı" titulunu əbədi olaraq mənimsəmişdir.

Xidməti budur ki, Misir hakimi olarkən müsəlmanların böyük hissəsini bir bayraq altında birləşdirib "şir ürəkli Riçardı geri oturdaraq II xaç yürüşünün qarşısını almışdır. Bir sözlə, xaçpərəstlərin özlərinin yazdığı kimi İslamı xilas etmiş, müsəlman dünyasını səlibçilərin tapdağından qorumuşdur.

Bir sıra tədqiqatçıların qənaətinə görə Səlahəddinin babası Şadi o zaman Ermənistan Dvini (Zəngəzur-Ş.h.) ətrafında məskunlaşmış Rəvvadi kürd tayfasından çıxmışdır.

Səlahəddin Əyyubi tarixdə möhtəşəm iz qoyan Əyyubilər sülaləsinin yaradıcısıdır.

**(Bax: L. A. Semyonova. "Salax addin i mamluki v Eqipte ". Moskva,1966.**

### ZEYNALABDİN MARAĞAYİ

Akademik İ. A. Orbeli yazır: "Kürd xalqı tarixən öz oğullarını iranlı, türk, ərəb, erməni adı altında itirmişdir ki, onlar məşhur şair, müğənni və sərkərdə kimi başqa xalqların tarixini zinətləndirmişlər". İranlı adı altında itirilmiş kürd oğullarından biri də məşhur "İbrahim bəyin səyahətnaməsi" adlı romanın müəllifi, ötən əsrdə yaşamış Zeynalabdin Marağayidir.

Əsər fars dilində yazılmışdır. İran ədəbiyyatşünaslarının fars nəsrinin görkəmli nümunəsi hesab etdiyi romanı Azərbaycan alimləri Azərbaycan bədii nəsr tarixində roman janrının ilk nümunəsi sayırlar.

Zeynalabdin Marağayi 1837-ci ildə Marağada varlı-hallı tacir ailəsində doğulmuşdur. "Səyahətnamə"nin üçüncü cildinin başlanğıcında özü haqqında yazır: "Əlqərəz, başdan ayağa günahkar olan bu müəllif Zeynalabdin ibn Məşədi Əli ibn-Hacı Rəsul ibn-Hacı Abdulla, ibn-Həmzə xan Savucbulaq (İran Kürdüstanında şəhər. Hazırkı adı Mahabaddır -Ş.h.) kürdlərindən və həmin mahalın xanlarından idi. Dinləri sünni olub, şafei məzhəbindən idilər".

"Səyahətnamə" kürd təfəkkürünün fars dilində meydana çıxmış məhsuludur.

### HEYRAN XANIM DÜNBÜLÜ

Əsasən Azərbaycan dilində yazıb yaratmış Heran xanım özü haqqında deyir:

**Soruşsan nəsəbini bu yazıq Heyranın,**
**Bir Əli xadimidir, cümlə-cahanə bildir.**
**Naxçıvan şəhərinin ətrafına çatsa nəsəbi,**
**Əslinə varsan əgər, tayfası dünbülüdür.**

1574-cü ildə qələmə alınmış "Şərəfnamə" əsərinin müəllifi Şərəf xan Bidlisinin və bir sıra başqa müəlliflərin yazdığı kimi dünbülülər kürd tayfası olub Cənubi Azərbaycanda Xoy və Səkmənabad tərəflərdə yaşamışdır. Səfəvilər zamanında, habelə Nadir şahdan sonra Dübülü tayfasına mənsub olan adamlar Xoy və onun ətrafında hakimlik etmişlər. Təbrizin bəylərbəyi Kərim xan Zənd də bu tayfadan olmuşdur. O, vəfat etdikdən sonra, Qacarların hakimiyyətinin ilk dövründə Azərbaycanda dünbülülərdən bir neçə xan hakim idi.

Heyran xanımın özünün yazdığına görə o, Naxçıvanda, kübar ailəsində doğulmuş və orada da tərbiyə almışdır. İran-rus müharibələrinin ilk illərində ailəsi ilə birlikdə Cənubi Azərbaycana köçürülmüşdür.

Heyran xanım 80 il yaşayıb.

Fətəli xan Xoyki də Dünbülü tayfasındandır.

**(bax: heyran xanım. Seçilmiş əsərləri. Az. Döv. nəşriyyatı, 1961)**

### "QAFQAZIN HOMERİ"

Aşıq Alının babası Haqverdi Dərələyəz mahalının Milli dərəsindəki Gilan kəndindən qohum- əqrabası ilə birlikdə Göyçə mahalının Qızılvəng kəndinə köçmüşdür. Haqverdinin əmisi uşaqlarından Kəlbəcərin indiki Milli kəndinə gəlib, oranı özünə məskən seçənlər də olmuşdur.

Aşıq Alı 1801-ci ildə Göyçə mahalının Qızılvəng kəndində Mirzə kişinin yoxsul ailəsində dünyaya göz açıb, 1911-ci ildə həmin kənddə vəfat edib.

Qüdrətli sənətkarın aşağıdakı təcnisi birinci və sonuncu dəfə 1977-ci ildə dərc edilib.

**Dövrün səməndini ruzi əlindən,**
**Əbədi nə fateh, nə danə mindi.**
**Arif əhsən aldı aqil əlindən,**
**Hər anda tənə söz nadana mindi.**

**Əbçər həmdəm oldu kürd marama,**
**Əlacı çəng idi, kürd, dəm arama.**
**İbtida irsindən kürdəm, arama**
**Danmadım bu irsi, nə danam indi.**

**Mahaldan feyziyab dolanan Alı,**
**Elin xəzinəsinə dola nan, Alı,**
**Ara bu mənanı dolan, an, Alı.**
**Nadan xəyalında nadanam indi.**

Ustad Alı, Şıx Adı, Təbib Alı, Dədə Alı, Təcnis Alı titullarını qazanan, ömrünün son illərində dünya işığına həsrət qalan aşığı səyyahlar "Qafqazın homeri"adlandırmışdılar.

### SULTAN BƏY

Soltan bəy çar imperatorluğu tərəfindən bəylik verilmiş məşhur bir nəslin nümayəndəsidir. Laçının Kürdhacı kəndində doğulub. XVI əsrdə İran şahının əmri ilə İrandan Qarabağ yaylasına köçürülmüş 24 kürd tayfasından biri olan Hacısamlı tayfasındandır. Təsadüfi deyildir ki, ona Hacısamlı Soltan bəy deyiblər.

Atası Paşa bəy qabaqcıl fikirli adam olduğundan övladlarının təlim-tərbiyəsinə xüsusi fikir vermişdir. Oğullarından Aslan bəy Qori gimnaziyasını, Xosrov bəy Odessa İmperiya Universitetini bitirmişdir. Xosrov bəy ADR zamanı Qarabağın general-qubernatoru olmuşdur. Soltan bəy isə beş dil bilmişdir.

Soltan bəy 1918-ci ildə Andranik Uzunyanın Laçından Şuşaya adlamaq istəyən böyük silahlı dəstəsini məhv etməklə adını tarixdə əbədiləşdirmişdir.

### İVANE VƏ ZƏKƏRİYƏ (ZAXARE) QARDAŞLARI

İvane və Zəkəriyə qardaşları çariça Tamaranın baş sərkərdələri, vuran əli olmuşdur. Onların bacısı Xorişah 1215-1261-ci illərdə Arsax-Xaçın Alban knyazlığına başçılıq edən knyazlar knyazı Həsən Cəlalın anasıdır. **("Elm və həyat" j. N 9. 1989-cu il)**

XII əsrin sonu, XIII əsrin əvvəllərində İvane və Zəkəriyənin mənsub olduğu Mxarqrdzeli nəsli Gürcüstan dövlətinə müstəsna xidmət göstərib. Akademik Şota Ambakoviç Mesxiya "XII əsrdə gürcüstanda daxili siyasi vəziyyət və dövlət quruculuğu" kitabında yazır ki, Mxarqrdzeli xalis gürcü familiyası olsa da onlar kürd tayfalarının birindən ayrılıb, XI əsrdə Zaqafqaziyaya köçmüşlər. Akademik daha sonra yazır: "Böyük gürcü tarixçisi İvane Cavaxişvili deyir ki, Mxarqrdzelilər mənşəcə kürddür və bu barədə mübahisə etmək mənasızdır".

Səhifəni hazırladı: İsmayıl Tahir

# SARI AŞIQ GECƏSİ

***Dünən aprelin 30-da Filarmoniyada Sarı Aşıq gecəsi keçirilmişdir. Gecədə Laçın rayonunun ziyalıları, elm və sənət adamları iştirak ediblər. İncəsənət Universitetinin professoru folklorşünas Məhərrəm Qasımlı Sarı Aşıq haqqında gecəni açaraq tamaşaçılara məlumat verərək, sözü Laçın Rayon İcra Hakimiyyətinin sədri Ramiz Cəbrayılov cənablarına verdi. Ramiz müəllim Laçın rayonunun iqtisadi-siyasi durumundan, köçkün xalqımızın durumundan, hörmətli prezidentimiz İlham Əliyev cənablarının qaçqın və köçkünlərə qayğısından, torpaqlarımızın geri qaytarilmasından danışaraq meydanı aşıqlara verdi. Aşıq qurupu aşıq Cabbar Cabbarovun rəhbərliyi ilə Səməd Vurğunun "Azərbaycan" şeri ilə səhnəni canlandırdı. Laçın aşıqları aşıq Umbay Axundovlar, Pərviz Sahil Qurbanovlar, Təbriz Sadiqov, Pərviz Axundov vətən həsrətli mahnıları ilə, vətənə bağlı şeirləri ilə gecəyə xüsusi rəng verdilər. Sarı Aşığın gələn yubleyinin aşığın doğma Vətəni Laçında keçirilməsi arzulandı.***

# SARI AŞIQ HAQQINDA



## HƏYATI

XVII əsr Azərbaycan aşıqlarından olan Sarı Aşığın doğum və ölüm tarixi dəqiq məlum deyil. Aşığın qəbri Zəngəzur mahalının, indiki Laçın rayonunun Güləbürd kəndinin, Həkəri çayının yaxınlığındadır. Qəbrin baş daşına onun xəyali şəkli də həkk olunmuşdur. Arxeoloqlar 1927-ci ildə qəbri açaraq onun XVII əsrdə yaşadığını sübut etmişlər. Sarı Aşığın həyatıyla bağlı xalq arasında "Yaxşı və Aşıq" dastanı təşəkkül tapmışdır. Sarı Aşıq əsasən bayatılarıyla tanınır. O, "bayatı qoşmaq qadın işidir" deyənlərə meydan oxuyaraq yaradıcılığında bu janra üstünlük vermişdir. Aşıq əsasən əxlaqi məsələlərə toxunan bu bayatılarında cinaslardan şox ustalıqla istifadə etmişdir.

Şeirlərində atalar sözlərini və məsəlləri tez-tez işlədən Sarı Aşıq şoxlu sayda sevgi şeirlərinin də müəllifidir.

1993-cı ildə erməni vandalları Sarı Aşığın qəbrini tamamilə dagıtmışlar.

## YARADICILIĞI

**GƏLMƏDİN**

Vədə verib mənə, gələm demişdin,
Gözüm qaldı intizarda, gəlmədin.
Sənsiz mənim ağlamaqdı munisim,
Mənsur kimi qaldım darda, gəlmədin.

Əlif qəddim əydi hicran məlalı,
Necə xəlq eyləmiş qaşın hilalı,
Saldı məni qəmə zülfün xəyalı,
Məni qoydun eşq barda gəlmədin.

Mən elə Aşıqəm ey vədə xilaf,
Nizəni ahundan çərx olar şikar,
Belə olar ay bimürvət, nainsaf,
Getdi əldən ixtiyar da gəlmədin.

**GÖZLƏRİN**

Əyibdi qəddimi qaşların tağı,
Qəsd eləyib şirin cana gözlərin.
Bu qədər şux baxıb aşiq öldürmə,
Heyifdi batmasın qana gözlərin.

Camalın şöləsi günəşdən əla,
Səni görən necə olmaz mübtəla,
Qəmzəyi cəlladın, xədəngin bəla,
Rəhm eləməz heç insana gözlərin.

Gözəllikdə sənsən bu gün yeganə,
Canım qurban olsun sən tək canana,
Yıxar Aşıq evin elər viranə,
Dolananda hər bir yana gözlərin.

***

Şikar edib tutdum bir şahi tərlan,
Sən etdin ağlımı zail, a Yaxşı!
Səni sevən keçər canü sərindən,
Olar camalına mail, a Yaxşı!

Məhəbbəti olan istər sazını,
Mən çəkərəm hər dəm sənin nazını.
Şəmsü Qəmər kimi görgəz üzünü,
Gün təki aləmə yayıl, a Yaxşı!

Qaşların bir oxdu, kirpiyin almaz,
Haramdan oxlasan, oram sağalmaz.
Gedər bu gözəllik sənə də qalmaz,
Əgərçi sərxoşsan, ayıl a Yaxşı!

Məni sənə aşiq etdi yaradan,
Səyrağıbı haqq götürsün aradan.
İstəyirsən xəbər tutgil Sarıdan,
Yollarında mənəm sail a Yaxşı!

**BAYATILAR**

Bu Aşıq zində deyil,
Ağlı özündə deyil,
Kim deyər haq cəmalı,
Yaxşı üzündə deyil.

***

Gözəllik soy ilendi,
Şahmar da soy ilandı,
Nəsimi tək bu Aşıq,
Yolunda soyulandı.

***

Aşıq minaya dəyər,
Qurban minaya dəyər,
İl var bir günə dəyməz,
Gün var min aya dəyər.

***

Mən Aşıqam qanlı gül,
Qanlı seviş, qanlı gül,
Yemiş bülbül bağrını,
Çıxmış ağzı qanlı gül.

***

Qarşıda yaxşı dağlar,
Köçməyə yaxşı dağlar,
Hər kəsin bir dağı var,
Aşıqı Yaxşı dağlar.

***

Aşıq Qaramanlıdı,
Xalın qara, manlıdı,
Yaxşının tənəsindən
Yenə qar amanlıdı.



**Ümumi məlumat (işğaldan öncə):**

| | |
|---|---|
| Ümumi ərazi, [kv.km] | 1883.00 |
| Əhalinin ümumi sayı | 65507 |
| Kəndlərin sayı | 125 |
| Qəsəbələrin sayı | 1 |
| İri və orta müəssisələrin sayı | 133 |
| Məktəbəqədər uşaq müəssisələrinin sayı | 3 |
| Ümumtəhsil məktəblərinin sayı | 101 |
| Texniki, orta ixtisas və peşə məktəblərinin sayı | 2 |
| Ali təhsil müəssisələrinin sayı | 0 |
| Xəstəxanalar və tibb müəssisələrinin sayı | 20 |
| Mədəniyyət ocaqlarının sayı | 217 |

## LAÇIN RAYONU

(İşğal tarixi: 18 may 1992-ci il)

Laçın rayonu Azərbaycan Respublikasının cənub-qərbində dağlıq ərazidə yerləşir.

69 min əhalisi olan bu səfali məkan 120 kənddən, 1 şəhərdən və 1 qəsəbədən ibarət iidi.

Laçın 1923-cu ilə qədər Abdallar, sonra isə Laçın adlanıb.

Rayonda əsasən maldarlıq, arıçılıq, əkinçilik, taxta-şalban istehsali inkişaf etmişdi.

Hazırda Laçın rayonunun əhalisi Azərbaycan Respublikasının müxtəlif ərazisinə səpələnmişdir.

### Tarixi haqqında qısa məlumat

Laçın rayonu Azərbaycan Respublikasının cənub-qərbində dağlıq ərazidə yerləşir.

Şimaldan Kəlbəcər rayonu, şərqdən Xocalı, Şuşa və Xocavənd rayonları, cənubdan Qubadlı, qərbdən isə Ermənistan Respublikası ilə həmsərhəddir.

1923-cü ildə Dağlıq Qarabağ Muxtar Vilayətinin təşkili ilə əlaqədar Şuşa qəzası ləğv olunmuş və əvəzində Ağdam qəzası təşkil edilmişdir.

1923-cü ildə Respublika Mərkəzi İcraiyyə Komitəsinin qərarına uyğun olaraq Qubadlı, Kəlbəcər və Laçın torpaqları vahid qəza halında birləşdirilərək Kürdüstan qəzası yaradılmışdır. Qəza mərkəzi əvvəlcə Pircahan, sonra Minkənd, daha sonra isə Laçın təsdiq edilmişdir.

Laçın şəhərinin yerini Tağı Şahbazi Simurğ seçmiş və bu adı da ona o özü vermişdir.

Laçın rayonu 1924-cü ildə yaradılmış, ərazisi 1883 kvadrat km-dir. 01 yanvar 2004-cü il tarixə əhalisi 65507 nəfərdir. Rayonun mərkəzi Laçın şəhəridir, əhalisi 14500 nəfərdir.

Rayon üzrə 15310 təsərrüfat mövcuddur.

Əhalinin sıxlığı hər kvadrat km-ə 36 nəfər, hər sakinə 18 kvadrat km sahə düşürdü.

Mərkəzləşdirilmiş su təchizatı sistemindən bir gündə 4800 kub su, qaz şəbəkəsindən 173000 kub qaz, 985000 kq maye qaz istehlak olunurdu.

Laçın şəhərinin böyüyüb inkişaf etməsində ilk addımları Tağı Şahbazi Simurğ, Hüsü Hacıyev, İsmayıl Şərifov, Canbaxış Abdullayev və onlarca başqaları atmış, onların çox böyük fədakar xidmətləri olmuşdur.

İkinci dünya müharibəsi illərində 3660 nəfər Laçın rayon sakini cəbhəyə yollanmış, onlardan 2426 nəfəri geri qayıtmamışdır.

Şosse yol Laçına 1950-ci illərin əvvəllərindən çəkilməyə başlamışdır.

Respublikanın paytaxtı Bakı şəhəri ilə şosse yolla ara məsafəsi 450 km, Xankəndi dəmir yolu stansiyası ilə ara məsafəsi isə 60 km olmuşdur.

1962-ci ildən sonra isə əvvəlcə şəhərin, sonra isə kəndlərin elektrikləşdirilməsi, radiolaşdırılması və telefon xətlərinin çəkilişi işinə başlanmışdır.

Rayonun cəmi torpaq sahəsi 166488 hektar olmuşdur ki, ondan da 75781 hektarı kənd təsərrüfatına yararlı, 12102 hektarı isə əkin yeri idi. Həmin torpaqlardan 1515 hektarı sututar torpaqlardan ibarət idi.

Rayon ərazisinin 927 hektarını həyətyanı, 33205 hektarını meşə, 72000 hektarını yaylaq sahələri təşkil edirdi.

Rayonda şəhər, qəsəbə və 125 kəndin bazasında 48 şəhər, qəsəbə və kənd inzibati-ərazi vahidləri üzrə nümayəndəliklər fəaliyyət göstərirdi.

Rayonun iqtisadiyyatının əsasını heyvandarlıq və əkinçilik təşkil edirdi.

Azərbaycanın rəhbəri Heydər Əliyevin təşəbbüsü ilə Azərbaycan KP MK-nin və Nazirlər Sovetinin "Dağ rayonlarının iqtisadiyyatını daha da yüksəltmək tədbirləri haqqında", "Laçın rayonu zəhmətkeşlərinə mədəni-məişət xidmətlərini daha da yaxşılaşdırmaq tədbirləri haqqında" 16 noyabr 1971-ci il və Azərbaycan KP MK-nin bürosunun "Laçın şəhərinin 50 illiyi barədə" 6 avqust 1974-cü il tarixlərdə qəbul olunmuş qərarlar rayonun sosial-iqtisadi və mədəni həyatının, əhalinin maddi rifah halının yaxşılaşdırılmasına çox böyük güclü təkan vermiş, təsərrüfatların maddi-texniki bazası xeyli möhkəmlənmiş, orta məktəb məzunlarının güzəştlə ali məktəblərə qəbuluna xüsusi yer verilmişdir.

Şəhər və kəndlər abadlaşdırılmış, şəhərlərdə 1000 nömrəlik avtomat-telefon, televiziya ötürücüsü stansiyaları qurulmuş, bütün kəndlər başdan-başa telefonlaşdırılmış, radiolaşdırılmış, elektrikləşdirilmiş, Laçın şəhərinə və rayonun 53 kəndinə təbii qaz çəkilmişdir.

Bu diqqət və qayğı sayəsində onlarla təhsil, mədəniyyət, məişət, səhiyyə obyektləri, heyandarlıq komp

574:1.QXD 15.04.2024 9:43 Page 5



lekslәri vә sair sosial-mәdәni vә kәnd tәsәrrüfatı obyektlәri tikilib istifadәyә verilmişdir. Kәndlәrә şosse yollar çәkilmiş, Şuşa-Laçın yolu әsaslı surәtdә yenidәn tikilmiş, asfalt zavodları, daş karxanaları, әhәng, pemoksol, yerli sәnaye, toxuculuq sexlәri istifadәyә verilmiş, Sumqayıt Alüminium vә maşınqayırma zavodlarının, Bakı 1№-li tibb texnikumunun filialları açılmış, mәrmәr yataqları istifadәyә verilmiş, ticarәt, ictimai-iaşә, mәdәniyyәt, rabitә vә kommunal xidmәtlәrin şәbәkәlәri xeyli genişlәndirilmişdir.

Görülmüş tәdbirlәr nәticәsindә rayonda 133 idarә vә müәssisә, o cümlәdәn 23 tikinti vә 16 sәnaye müәssisәlәri fәaliyyәt göstәrmişdir.

Rayonda 1 әdәd avtovağzal, 82 avtobus dayanacağı, 2130 km uzunluğunda avtombil yolları, 92 әdәd körpü, 1187 km uzunluğunda su kәmәri, 33 su anbarı, cәmaşırxana, 15 km uzunluğunda mәrkәzi kanalizasiya, 20 km uzunluğunda istilik şәbәkәsi, 14 hamam, 8 әdәd yanacaq doldurma stansiyası, 2636 km uzunluğunda elektrik hava xәtlәri, 498 km uzunluğunda qaz kәmәri, 10200 km uzunluğunda radio-telefon kommunikasiya xәtlәri, 3 әdәd televiziya stansiyası vә ötürücülәr vә sair mövcud olmuşdur.

1992-ci ilin mayın 18-dә Laçın rayonu xәyanәtin qurbanı oldu vә ermәni silahlı qüvvәlәri tәrәfindәn işğal edildi.

Laçının işğalı ilә әlaqәdar rayona 7,1 milyard ABŞ dolları dәyәrindә ziyan dәymişdir.

264 nәfәr şәhid olmuş, 65 nәfәr girov götürülmüş, 103 nәfәr әlil olmuşdur. Rayon üzrә 1 yaşdan 16 yaşadәk mövcud olan 24374 nәfәr uşaqdan 18 nәfәri şәhid, 225 nәfәri әlil olmuş, 1071 nәfәri, o cümlәdәn 31 nәfәri hәr iki valideynindәn yetim qalmışdır.

Bütün var dövlәtlәrimizi yeraltı vә yerüstü sәrvәtlәrimiz talan-qarәt olmuş, torpaqlarımız hәrraca qoyulmuş, ata-baba qәbiristanlıqlarımız düşmәn tapdağında qalmış, rayonun 65507 nәfәr әhalisi Respublikanın 59 şәhәr vә rayonlarına, "Taxtakörpü" qışlaqlarındakı 84 obaya mәcburi köçkün düşmüşdür.

## İqtisadi-tәsәrrüfat potensialı

Rayonda iri dövlәt müәssisәlәrindәn olan 9 heyvandarlıq sovxozu, o cümlәdәn Kirov adına südçülük damazlıq sovxozu, yağ-pendir zavodu, konserv zavodu, әt tәdarükü vә qәbulu mәntәqәsi, yun vә gön-dәri qәbulu idarәsi, kimya birliyi, baytarlıq müalicәxanası, tikinti materialları istehsalat birliyi, ağac emalı sәnayesi, yol vә tikinti quraşdırma idarәsi, Sumqayıt Alüminium vә maşınqayırma zavodlarının filialları, yüngül sәnaye vә yerli sәnaye kombinatları, iki әdәd asfalt zavod, beton zavod, texnikitәchizat birliyi, suvarma sistemlәri idarәsi, 23 tikinti idarәsi, mәrmәr, әhәng, pemoksol vә toxuculuq sexlәri, iki әdәd daş karxanası, avtonәqliyyat müәssisәsi, tәhsil, sәhiyyә, mәdәniyyәt, ticarәt, ictimai-iaşә, rabitә, mәişәt, kommunal müәssisәlәri vә digәr idarә vә müәssisәlәr fәaliyyәt göstәrirdi.

# SARI AŞIQ HAQQINDA



Ümumiyyәtlә, rayonda 133 iri vә xırda idarә, müәssisә vә tәşkilat, 52 kolxoz, 9 sovxoz vә payçı kәndli fermer tәsәrrüfatı fәaliyyәt göstәrmişdir.

## Nәqliyyat infrastrukturu

Dağlıq Qarabağı Ermәnistan Respublikasının Gorus rayonu ilә birlәşdirәn Respublika әhәmiyyәtli şosse yolun uzunluğu Laçın şәhәrindәn Gorus rayonuna kimi 54 km, Şuşa rayonuna isә 40 km, cәmi 94 km-dir.

Respublika әhәmiyyәtli Laçın-Qubadlı yolu 77 km-dir.

Rayon üzrә cәmi 2130 km uzunluğunda Respublika vә yerli әhәmiyyәtli yol, 92 әdәd körpü vardır.

Respublikanın paytaxtı Bakı şәhәri ilә şosse yolla ara mәsayәsi 450 km, Xankәndi dәmir yolu stansiyası ilә 60 km-dir.

## Tarixi vә memarlıq abidәlәri

Rayonun әrazisindә 200-ә yaxın tarixi, mәdәniyyәt vә memarlır abidәlәri, onlarla kurqan, qala tipli arxeologiya baxımından faydalı olan abidәlәr, çoxlu sayda qәbirüstü abidәlәr, stellalar, at, qoç fiqurları, süjetli daşlar, elәcә dә bu әrazi çoxlu tәbii sәrvәtlәri, qiymәtli minelar suları ilә zәngindir.

Bu әrazidә olan abidәlәrin әksәriyyәti Qafqaz Albaniyası dövrünün yadigarlarıdır. Alimlәrimizin verdiyi mәlumata әsasәn bu әrazidә olan Qafqaz Albaniyası dövrü abidәlәrinin bir çoxu bizim eranın xristianlıqdan әvvәlki dövrünә aiddir.

Bu yerlәrin mürәkkәb relyefi, sәrt iqlimi bir çox çay keçidlәrindә, yolların keçilmәz hissәlәrindә körpülәrin inşasına sәbәb olmuşdur. Onlar әsasәn bir tağlı vә yaxud iki tağlı körpülәrdir.

Rayonun әrazisindә aşağıda adları çәkilәn abidәlәr rayon әrazisindә olan abidәlәrin yalnız 70%-ә qәdәrini tәşkil edir.

1. Abdallar (Bәylik) kәnd әrazisindә: Hәkәri çayı üzәrindә körpü XVIII әsr, daş qutu-dәmir dövrü, qәbiristanlıq.

2. Zabux kәndi әrazisindә: Sümüklü qәbiristanlığı, XVI әsrә aid Xallanlı qәbiristanlığı.

3. Malıbәy kәndi әrazisindә: qәdim qәbiristanlıq.

4. Kosalar kәndi әrazisindә IX әsrә aid Ağoğlan qәsri, qәdim qәbiristanlıq.

5. Soltanlar (Hüsülü) kәndi әrazisindә: 1761-ci ilә aid Soltan Әhmәd sarayı, XIV әsrә aid qәdim qәbiristanlıq.

6. Zeyvә kәndi әrazisindә Soltanbaba türbәsi, Şeyx Әhmәd türbәsi, Türbә, qәdim qәbiristanlıq.

7. Qaraqışlaq kәndi әrazisindә XI әsrә aid mәscid, Dәmirovlu Pir-Mәbәd.

8. Sadınlar kәndinin mәrkәzindә XVII әsrә aid mәbәd.

9. Hacılar kәndi әrazisindә: qәdim qәbiristanlıq, bulaq (abidә).

10. Vağazin kәndi әrazisindә mәbәd.

11. Quşçu kәndi әrazisindә XV әsrә aid Uşaq qalası, böyük Bulaq, Korca bulaq, Sadınlar qalacığı.

12. Mirik kәndi әrazisindә XV әsә aid qala, mәbәd.

13. Bozlu kәndi әrazisindә qәbiristanlıq, Xaçın yalı әrazsindә XV әsrә aid Xaçın daşı.

14. Әhmәdli kәndi әrazisindә XVII әsrә aid mәbәd "Vәng" qәbiristanlığı.

15. Minkәnd kәndi әrazisindә XV әsrә aid Minkәnd çayı üzәrindә ikitağlı, Abaxeyir әrazisindә bir tağlı körpü. Mәbәd.

16. Şeytanlı kәndi әrazisindә Birtağlı körpü.

17. Qaragöl әrazisindә mәscid, qәbiristanlıq.

18. Hoçaz kәndi әrazisindә mağara, mәbәd.

19. Soyuqbulaq kәndi әrazisindә Bulaq (abidә), Mәbәd.

20. Zabux kәndi әrazisindә körpü (1988-ci ildә dağıdılıb).

21. Gülәbird kәndi әrazisindә XV әsrә aid Qız qәbri abidәsi, dәmir dövrünә aid Kurqan, Qız qәbri (kurqan), orta әsrә aid Qәdim qәbiristanlıq, Bayatı ustadı Sarı Aşığın qәbri.

22. Cicimli kәndi әrazisindә XVI әsrә aid Mәlik Әjdәr türbәsi, XVII-XVIII әsrlәrә aid türbә, orta әsrlәrә aid Çoban daşı vә qәdim qәbiristanlıq.

23. Malxәlәf kәndi әrazisindә XVII әsrә aid Xәlifә türbәsi, qәdim qәbiristanlıq. Sınıq körpü.

24. Aşağı Fәrәcan kәndi әrazisindә X әsrә aid mәbәd, Fәrәcan Gülәbird yolunda körpü, qәdim qәbiristanlıq.

25. Sus kәndi әrazisindә XVII әsrә aid bulaq.

26. Seyidlәr kәndi әrazisindә XVII әsrә aid bulaq, qәdim qәbiristanlıq, Pircançay üzәrindә qәdim körpü.

27. Pircahan kәndi әrazisindә XVII әsrә aid bulaq, XI әsrә aid Qovur qalası.

28. Korcabulaq kәndi әrazisindә mәbәd.

29. Ziyrik kәndi әrazisindә dәmir dövrünә aid Rizvan meşәsindә kurqan.

30. Әrikli kәndi әrazisindә XVI әsrә aid Qaraşaqqal türbәsi, araxışda türbә vә qәdim qәbiristanlıq.

31. Piçәniş kәndi әrazisindә mәbәd.

32. Şәlvә kәndi әrazisindә mәbәd.

33. Qorçu kәndi әrazisindә mәbәd.

34. Laçın şәhәrindә (1941-1945-ci illәr) Böyük Vәtәn müharibәsindә hәlak olanların xatirә kompleksi.

1924-cü ildәn sonra rayonda inşa olunmuş körpülәr, bulaqlar, abidәlәr vә abidә komplekslәri vә s.

Qeyd: Ermәnistan silahlı qüvvәlәrinin işğalı zamanı rayonda mövcud olan bu tarixi, mәdәni vә dini abidәlәr dağıdılmışdır.

## Görkәmli şәxslәr haqqında mәlumat

Laçın rayonunun tәbiәti, coğrafi relyefi, havası, suyu, orada yaşamış insanların bir çoxunun igid, qәhrәman, mәrd, mübariz, görkәmli şәxsiyyәtlәr kimi yetişmәlәrinә vә formalaşmalarına heç şübhәsiz ki, çox böyük tәsir göstәrmişdir.

Mәhz bütün bunun nәticәsidir ki, bir vaxtlar Laçın dağlarında at oynadan Soltan bәy ermәni quldurlarının hücumlarının qarşısını qәhrәmanlıqla almış vә Zabuxçayda Andranikin qoşununu darmadağın etmişdir.

İsmayıl Mirzәyev, Ocaqqulu Musayev, Abdulla Hüseynov kimi görkәmli inqilabçılar mәhz Laçın rayonunda yetişmişlәr.

Böyük Vәtәn Müharibәsindә Polşa torpaqlarının azad edilmәsi uğrunda gedәn döyüşlәrdәki şücaәtinә görә laçınlı Әvәz Verdiyev Sovet İttifaqı Qәhrәmanı kimi yüksәk fәxri ada layiq görülmüşdür.

O vaxtlar yerli camaatda elmә, maarifә, hәvәs oyatmaq üçün 70-ci illәrdә "Qabaqcıl maarif xadimi" fәxri adına layiq görülmüş, dünyalarını dәyişmiş Әlәsgәr Mәmmәdov, İdris Xәlilov, filologiya elmlәri doktoru Xasay Cabbarov, fәlsәfә elmlәri namizәdi Salman Salahov, hazırda professor Şahbaz Muradov, tarix elmlәri doktoru, professor Oktay Әhmәdov, coğrafiya elmlәri namizәdi Malik Mirzәyev, riyaziyyat elmlәri namizәdi Sovet Möhbalıyev, tibb elmlәri namizәdi Әvәz Zeynalov, aviasiya texnika elmlәri namizәdi polkovnik Şamil Mәmmәdov, riyaziyyat elmlәri namizәdi Mustafa Qarayev, "Şәrәf nişanı" ordenli filoloq Tofiq Nәcәfov, Baxışzadә Hәsәnli, Müseyib Axundov, Qurban İbrahimov, Musa Quluyev vә onlarca başqa elm fәdailәri gecә-gündüz әhalinin savadlanması üçün әllәrindәn gәlәni etmişlәr.

Heyvandarlıqda qazanılan nailiyyәtlәrә görә Laçın rayonunu nәinki respublikada, hәtta o vaxtlar bütün keçmiş SSRİ miqyasında tanıdan adamlar az olmamışdır.

Adi kәndli, hes bir savadı olmayan keçmiş Leninkәnd sovxozunun baş çobanı Hәsәn Cümşüdov hәlә 1936-cı ildә "Lenin" ordeni ilә, bir neçә il sonra isә onun oğlu Әkbәr Cümşüdov Moskvada keçirilәn Xalq Tәsәrrüfatı nәaliyyәtlәri sәrgisindә "Şәrәf nişanı" ordeni ilә tәltif olunmuşdur.

70-ci illәrdә Kirov adına sovxozun sağıcısı, Qәhrәman ana Şәrqiyyә Vәliyeva Sosialist Әmәyi Qәhrәmanı, 1980-ci illәrdә isә Lenin adına sovxozun baş çobanı Cabbar Cabbarov keçmiş "SSRİ Dövlәt mükafatı laureatı" adına layiq görülmüşdür.

Laçın şәhәri ilә hәmyaşıd olan, ömrünün 55 ilini Laçın rayonunun ictimai-siyasi, sosial-iqtisadi hәyatının inkişafına sәrf etmiş, "Şәrәf nişanı", "Xalqlar dostluğu", "Oktyabr inqilabı", 3 әdәd Qımızı әmәk bayrağı vә "Azәrbaycan bayrağı" ordenlәri ilә tәltif olunmuş Muradxan Cabbarov bu gün dә bütün çәtinliklәrә sinә gәrәrәk köçkünlük dövründә öz qaynar fәaliyyәtini uğurla davam etdirir.

Qarabağ torpaqları uğrunda gedәn döyüşlәrdә fәdakarlıq göstәrmiş vә ölümlәrindәn sonra Azәrbaycanın Milli Qәhrәmanı kimi fәxri ada layiq görülmüş hәmyerlilәrimiz mәrhum Kamil Nәsibov, İsrafil Şahverdiyev, Oktay Gülәliyev, Fazil Mehdiyev, Qorxmaz Eyvazov vә onlarca "Azәrbaycan bayrağı" vә digәr ordenlәrә layiq görülmüş mәrd, mübariz insanlar mәhz Laçın rayonunun yetirmәlәri olmuşdur.

Sәhifәni hazırladı: ***Pәrviz Pәnahoğlu***

# KÜRDLƏR VƏ KÜRDÜSTAN

## Kürdlərin coğrafiyası və yerləşməsi

**(Əvvəli 525-ci sayımızda)**

Onun erməni dili ilə oxşarlığı haqqında əfsanənin heç bir əsası yoxdur.

Ərzrum vilayətinin Şərq hissəsində kürdlər başqa millətlərə nisbətən əhəmiyyətli dərəcədə çoxdurlar 1.

Suriyada ayrıca koloniyaları olan kürdlər Dəməşqdə bütöv məhlədə yerləşdirilmişdir. (M.Hartman). Bağdadda kürdlərin sayı beş mindir. Ancaq Bağdad vilayətində kürdlər ümumərəb kütləsinə qarışıblar. Zəngən, Delo və b. qəbilələr əsasən Bağdaddan İrana gedən yolun Şərqində yaşayırlar. (baş konsul Orlov).

Türkiyə kürdlərinin ümumi sayı, güman edildiyinə görə, bir milyon 7 yüz minə (Averyanov) çatır. Əgər İranda onların sayı bir miylona yaxındırsa, ümumi şəkildə bütün kürdlər (rus təbəələri də daxil olmaqla)2,5 və üç milyon ola bilər.

Bu vaxtacan kürdlərin yerləşməsinin ümumi etnoqrafik mənzərəsini vermiş və Qərbdə demək olar ki, naməlum qalmış 2 yeganə təşəbbüs polkovnik Kartsevin xəritəsindən ibarətdir. Texniki səbəblər üzündən onun surətini çıxarmaq mümkün olmadığı üçün biz kürd etnoqrafiaysının ən yaxşı praktik bilicisi – madam ki, söhbət Türkiyədən gedir – ingilis parlamentinin üzvü Mark Sayksın3 işinə əlavə olaraq Türkiyədə kürdlərin yerləşməsinin şəklini verəcəyik.

Ermənilərn, kürdlərin və nisbi saylarıı haqqında mümkün statistik materialların böyük hissəsi Xarici İşlər Nazirliyinin «Ermənistanda reforma» (1915) rəsmi nəşrində yığcam şəkildə qruplaşdırılmışdır.

*1) Baş konsul Adamov kürdlər üç yüz min, ermənilər iki yüz min, türklər iki yüz on min. Bayazid sancağında kürdlər başqa millətlərdən beş dəfə çoxdurlar. (linç) Müəllifi, Məşəddə baş konsul işləmiş T.M. Sukeslə qarışdırmamalı.*

*2) «Kürdlər haqqında qeydlər» (Zapiski Kavk. Ot İ.R.Qeoqr. Obh.1897 q 339-368) çap olunmuşdur. Orada kürdlər haqqında ədəbiyyat da var. Xəritədə ermənilərin üstünlüyünün göstərilməsi dəqiq deyil,kürdlərin qərb koloniyası göstərilməyib. İran əliallahilərinin rayonları düz göstərilməyib. Bəzən transkripsiyalar pozulur. Qəbilələrin adları yerə uyğun gəlmir. Ancaq öz-özlüyündə xəritə böyükdür və öz əhəmiyyətini itirməmişdir.*

*3) The Kurdisle tribes of the Ottoman Empire, Y.R.Anthor, S., XXXVI-II, 1908 q., (451-486). Bu iş, şübhəsiz, kürdlər haqqında bütün mövcud ədəbiyyatı cəlb etməklə təkmilləşdirilib yenidən çap olunmağa layiqdir. Xəritənin öz sistemi olduqca praktikdir. Qəbilələr sırf coğrafi cəhətdən 5 rayona bölünüb. Hər birinin sərhəddində rəqəmlə ayrı-ayrı qəbilələrin yeri göstərilib, onların yarımfəsilləri kiçik hərflərlə qeyd olunub. Xəritədən istifadə üçün qəbilələrin müfəssəl kataloqu əlavə olunub. Bizim əlavədə xəritə ancaq kürdlərin yerini tapmağın göstəricisi ola bilər. Nestorianlar xaçlarla göstərilib, ancaq ermənilərin yerləşməsi qətiyyən göstərilməyib. Və elə bu mənada polkovnik Kartsevin xəritəsi böyük üstünlüyə malikdir. S.M.Saykı eyni familiyalı «Teri thousand miies in Persia» kitabının arxa*

**II K Ü K D L Ə R İ N T A R İ X İ**

Kürdlərin mənşəi, daha doğrusu, onların Kürdüstanda ilk dəfə görünməsi çox mübahisəli məsələdir. Klassik yazıçılar1 müasir Kürdüstanın ərazisi ilə əlaqədar kürd adına çox oxşayan bir sıra adlar xatırladırlar. Son vaxta qədər belə demək qəbul olunmuşdu ki, yeni eradan əvvəl 401-ci ildə Ksenofontun başçılığı ilə 10 min yunan karduxların nəslindən olan kürdlərin (qarşısında) geri çəkilmişlər. Bu görüş son zamanlar dəyişib. Göstərilən oxşar adlı xalqlar bəzi alimlər tərəfindən iki qrupa ayrılırlar. Onlar birinin (məhz karduxilərin) ari mənşəini 2 inkar edirlər. Ancaq belə hesab edirlər ki, karduxilərdən şərqdə yaşamış korcios kürdlərin əcdadı olublar. Hər necə olsa da bizi maraqlandıran bu xalq yeni eradan bir neçə əsr əvvəl Kürdüstan dağlarında oturmuşdu.

*1) Kürdlərin adının mixi xətli abidələrdə çəkilməsi məsələsi, görünür, həll olunmayıb. Qabaqkı Kur-ti-i adını indi Kir-xi-i oxuyurlar (Bax. Hartman Bohtan, 11,92)*




*2) Akademik Marr belə hesab edir ki, «Karduxi» adı öz formasına görə bu xalqın urartulara yaxın olduğunu göstərir. (Özünü xalda adlandırımış). Ancaq karduxların qədim dili sonralar köklü surətdə yeni hind-Avropa dili ilə əvəz olundu. Bax «Bir daha Çələbi sözü haqqında», Z.B.O.XX, səh. 139. N.Ə.Marr Kürtilərin karduxlara münasibəti haqqında fikir söyləməyə çətinlik çəkir.*

Biz bilirik ki, kürdlər heç olmasa dilinə görə nəinki aridirlər, tamamilə müəyyən İran qrupuna məxsusdurlar. Deməli, onların (ya da onların dillərinin) vətəni böyük ehtimala görə, Şəlqdədir.1 Ariyalıların ilk yüksəlişi təxminən yeni eradan əvvəl VII əsrə aiddur. Məhz bu dövrdə midiyalılar öz müttəfiqləri ilə Assuriyanı darmadağın edəndə (yeni e.ə.607) kürdlərin böyük dəstəsi Qərbə doğru hərəkət etdi. Bununla bərabər yada salmaq lazımdır ki, kürdlərin ən yaxın və çoxəsrlik qonşusu olan ermənilər eləbu zaman frakiyadjan gəlib, Urartu2 çarlığını tutdular. (Tamam başqa mənşəli xalq) və Van gölü3 ətrafında məskən saldılar. Beləliklə, əgər ermənilərin kökü şimali-qərbdədirsə, onda kürdlərin kökü Şərqdədir. Bu, elə bil ki, Tavrın dağ qalasını iki yerə parçalayan bir-birinə zidd iki dalğadır.

Qədim fars monarxiyasında kürdlər ayrıca yad olunmurlar. Görünür 2 onlar Ermənistan əyalətinə daxil imişlər.

Bizim eradan qabaq yaşamış yunan coğrafiyaşünasları (Strabon, Ptolomey və b) indi Pinakanın Dəclə4 çayı üzərində kiçik yer olan Finiklə eyniləşdirdiyi şəhərlərdən biri olan Korduen (Qordien) vilayətini yaxşı tanıyırdılar.

*1) Arilərin İranda yerləşməsi, ehtimal ki, Şərqdən Qərbə baş vermişdi. B.B.Bartold 6, İstor. Qeoqr. Ob. obzorİrana, 1903, str.3,59.*

*2) Urartuları, ya da indi deyildiyi kimi xaldeyləri xüsusi alarodik xalqlar qrupuna aid edirlər (xetlər, mitannilər, nairlər) sr. B.A.Turaev, İst. drev. vost., II (1914), 46 i cld*

*3) Bununla belə, başqa bir nəzəriyyəyə görə, ermənilər xetlər və kimierilər yalarla müqayisə olunmuşlar. Bax.Xalatyans, Oçerk İstoriu Armenii, 1910, 10-20.*

*4) Ancaq əgər karduxlar və Kürtilərin fərqləri haqqındakı nəzəriyyə ilə razılaşsaq, onda onun dövründə mövcud olan Qoqdozios qədim zamanlarda karduxi adlanırmış, - deyən Strabonun (16, 747) göstərişini nəzərə almaq lazımdı.*

Bu korduenlə yuxarıda adı çəkilən Salmasdan cənubi Həkari ilə qərbə doğru Bohtana uzanan erməni arşakidlərinin Kortçeyası qismən üst-üstə düşə bilər.

Bu yerlərin taleyinin necə müxtəlif olduğunu mənim Şarmuadan aldığım quru bir icmal göstərəcəkdir. Mərkəzi Kürdüstanın cənub-şərq hissəsi ardıcıl surətdə əhəmənilərdən asılı olan erməni Haykan sülaləsinə, Böyük İsgəndərə, erməni arşakidlərinə, Mark Antonio və Kleopatranın oğlu Aleksandra, gah Parfiyanın, gah Romanın vassalı olan, arşakidlərə sasani Ərdəşir və Şapura, Qaleriyadan İovianayacan Roma imperatorlarına, yenə sasanilərə, Bizans imperatoru Feodosiyaya, sasanilərdən asılı olan erməni arşakidlərinə, yenə də bizanslara nəhayət, ilk ərəb işğalçılarına, keçmiş ərəb vassalları olmuş Arsruninin erməni knyazlarına və 990-1096-cı illərdə çarlıq etmiş ilk müstəqil kürd sülaləsi Mərvanilərə tabe olmuşlar.

Bunun ardınca yenə Şərq işğalçılarının bütöv sırası gəlir. XI əsrdə Səlcuqlar gəldilər. Sonra kürdlər monqollara qarşı əvvəlcə XIII əsrdə Hülakü xana, sonra təxminən1400-cü ildə bir dəfə Kürdüstanda – Amadey altında çox pis vəziyyətə düşmüş Tamerlana qarşı vuruşmalı oldular.

*1) sr. Adonüğ, Armenie pri Östinianğ, 418*

*2) Charmoy, cheref-nameh, 1,341-2*

Nəhayət, XVI əsrdə Qərbdən yeni işğalçılar, Osmanlı türkləri gəldilər və 1514-cü ildən Kürdüstanın taleyi türkiyə ilə bağlı oldu.

Kürdüstanı fəth etmiş Sultan Səlim onun qurulmasını yaxın adamı, əsli Bitlis kürdü1 olan tarixçi hakim İdrisə tapşırdı. Güman edirdilər ki, İdris siyasi məqsədlərə görə,kürdlərin ermənilər yaşayan rayonlarda yerləşdirilməsinə kömək edib. Ancaq düşünmək daha doğru olardı ki, kürdlər Şimaldan qismən köçəri, qismən də xristianlığı sıxışdıran hakim islamın tərəfdarı kimi xeyli qabaq yayılmışlar. Məsələn, məlumdur ki, məşhur Səlahəddinin Ravəndi qəbiləsindən olan ulu babaları hələ X əsrdə İrəvan quberniyası 2 dairəsində, Dvin ətrafında köçərilik edirdilər.

Kürd salnaməsində deyilir ki, Ruzeki qəbiləsi bitlis və Xazonu hansısa gürcü knyazı Daviddən alıb, elə orda da kürd sülaləsinin Bitlisdə yerləşməsinə 837-ci ilə ail olduğu göstərilir. Bəlkə bu tarixi bir qədər böyütmək lazımdı. Ancaq olsa bilsin ki, göstərilən hadisə X-XI əsrlərdən gec baş verməmişdir3.

Şübhə yoxdur ki, kürdlər daima erməni çarlığının hissələrini tədricən zəbt etmişlər. Və bu, XI əsrdə sona çatmışdı. Onlar bir çox yerlərdə öz qədim ərazilərində oturmayıblar. Ancaq nəzərə almaq lazımdır ki, bu məsələ yeni deyil, çoxəsrlik tarixə malikdi. Qədim Ermənistanın bizim günlərin kürd-erməni etnoqarfiyasına çevrilməsi bununla izah olunur.

*1) Onun haqqında müqayisə et Şeref-nameh, III, 208,531*

*2) Şeref-nameh, II (t.e. tom 1, çast 2), str. 76.*

*3) Şeref-nameh (tərcümə) III, 34, 224, 239. Bu əfsanə kürd xalqı arasında bu günə qədər yaşayır (Mş və Kabilos arasında) Sayüksın məqaləsinə bax. Charmoy (IV.213) belə hesab edirdi ki, adı çəkilən David 1027-ci ildə taxta çıxmış, ermənin Arsruni xanədanından olan Seperxerimin oğludu. Digər tərəfdən isə, əfsanənin gürcü knyazının adı ilə adlanması xarakterikdir. Mənə verilən məlumata görə, 1001-ci ildə vəfat etmiş David Kuropalat şəraitə daha uyğun gələ bilərdi. Salnamə gürcü və ermənini tamamilə ayırır. Məsələn, Bitlisdə qədim erməni kilsəsinin məscidə çevrilməisni xatırladır (III, 25)*

*Sultan Səlimin vassal vəziyyətinə saldığı kürd knyazlıqlarının əlvan təsvirini vermiş məşhur kürd salnaməsi «Şərəfnamə» XVI əsrin sonuna aiddir. Qərbi Fəratın sol sahibi və demək olar ki, şərqi Fəratın bütün axını boyunca (Murad-Su) islamın yayılmasından sonra öz qəbilələrini yaratmış hakim kürd knyazları tərəfindən tutulmuşdu. Demək olar ki, başçısı «Şərəfnamə» salnaməsinin müəllifi Şərafəddin xan olan Bitlis ən böyük knyazlıq idi. O, təfsilatı ilə öz mülkünün diqqətəlayiq yerləri, məscid və bazarları, elm adamları və s. təsvir etmişdi. Salnamədə xalis kürd soy məğrurluğu ilə uzun nəsil tarixi, müharibə səhnələri, qəbilələrin köçürülməsi, Türkiyə və İran arasında bu günə qədər davam edən mübarizə də həmişə qeyri-müəyyən vəziyyətdə qalması sadalanır.*

*«Şərəfnamə» kürdlərin sərbəst yaşamaları barədə belə yazır «Ən böyük sultanlar və yüksək potentatlar heç vaxt onların ölkələrinə, torpaqlarına qəsd etmirlər. Onlardan lazım olduğu qədər köməkçi qoşun kimi istifadə etmək üçün hədiyyələr almaqla məhdudlaşır, onların sədaqət və itaətindən razı qalırdılar». Yalnız XIX əsrdə bunun sonu çatdı. Böyük türk isla-*




*hatçısı II Sultan Mahmud Sultan Səlimin işini sona çatdırmaq, demək caizsə, Kürdüstanı yenidən istila etmək qərarına gəldi və bu, 1834-cü ildə Məhəmməd Rəşid paşa tərəfindən yerinə yetirildi. Bu vaxtdan etibarən kürdlər qismən türk təbəəsi oldular. Lakin elə burada, 1843-46-cı illərdə*

*1) cheref – nameh, II, 34*

*Bədir xanın başçılığı altında ilk kürd üsyanı şəklində reaksiya verdi. Ancaq bu ermənilərlə yox, içində ingilis missionerləri olan nestorianlarla qırğın və soyğunçuluq şəklində baş verdi. Bədir xana qarşı qoşun göndərildi, o, məğlub olub Kritə sürgün olundu.*

*Krım müharibəsi zamanı bədir xanın qardaşı oğlu və rəqibi Yezdanşirin başçılığı ilə artıq əsl xalq hərəkatı baş verdi. Türk ordusu şimala gedəndə.*

(Ardı gələn sayımızda)

574:1.QXD 15.04.2024 9:43 Page 7



# 1905-06-cı illərdə erməni-müsəlman davasında kürd xalqının rolu

(Əvvəli ötən sayımızda)

Müsəlmanlar şəhadət verdilər ki, bu, polyak tayfasındandır. Müsəlmanlarla Qalada müştərək davacat dükanı açır. İndi həmin dükan üçün davacat aparır. Əsgər xan polyakdan üzrxahlıq edib, o biri arabalarda əyləşmiş erməniləri və övrətləri əşyaları ilə birlikdə arabadan düşürüb öz mənzillərinə gətirdilər. Ermənilər və övrətlər qorxudan əsirdilər.

Qaçaq Əsgər xan üzünü ermənilərə tutaraq dedi:

— Sizin ermənilərin namərdliklə tutub başına-gözünə vura-vura olmazın işgəncəsi və zülmü ilə apardığı doqquz nəfər müsəlman da sizin kimi canlı, ev və külfət sahibi idi. Məgər sizin içinizdə Allahdan qorxan və insaflı bir adam yoxdurmu ki, bundan sonra belə əzazilliyə, rəzilliyə, cinayətə, nahaq qanların tökülməsinə bais olmağı və xalqın rahatlığını əlindən almağı sizin quldur, binamus

və namərd qımdatlara nəsihət etsin? İndi siz əyləşin, yeyib-için və rahatlanın. Əgər ermənilərin apardıqları 9 nəfər müsəlman salamatdırsa, siz də sağ və salamat öz əşyalarınızla çıxıb evlərinizə gedəcəksiniz. Yox əgər onlar öldürülmüş olsalar, siz də onların dalınca gedəcəksiniz.

Nəhayət, bir neçə gündən sonra məlum oldu ki, ermənilərin apardığı 9 nəfər öldürülüb. Qaçaqlar da 10 nəfər ermənini öldürüb dəfn etdilər. Övrətləri isə saxladılar.

**QARĞABAZAR ƏHVALATI**

Mirzə Hüseyn Cavad oğlu qarğabazarlı mənimlə (M. M. Nəvvabla) üzbəüz oturub bu əhvalatı özü nəql etdi. O, mənə danışdı ki, ermənilərin müsəlman kəndlərində törətdikləri vəhşilikləri eşidərkən biz hövsələdən çıxdıq və Qarğabazar, Qoçuəhmədli, Pirəhmədli, Qaragüllü və başqa kəndlərdən cavanları və igid döyüşçüləri toplayıb ermənilərin bu vəhşiliklərinin qarşısını almaq qərarına gəldik. Biz silahlanıb erməni kəndlərinin üstünə gedərkən xəbər gətirdilər ki, ermənilər ətraf kəndləri boşaldıb hamısı mövqeyi baxımından möhkəm və yaxşı mühafizəsi olan Xırmancıq kəndinə toplaşıblar. Bütün ətraf kəndlərin kişiləri və övrət-uşaqları da Xırmancıqda cəmləşmişdilər. Ətrafdan gələn ermənilər özləri ilə mal-dövlətlərini də bu kəndə gətirmişdilər.

Erməni kəndlərinin üzərinə getməyə hazırlaşan müsəlman dəstəsi Xırmancıq kəndinə gələrək onu iki tərəfdən mühasirəyə aldılar. Vəziyyəti belə görən ermənilərin bir qismi o biri tərəfdən qaçmağa başladılar. Bir qismi isə məxfi yerlərdə gizləndilər. Müsəlman dəstəsi gözə görünən ermənilərlə atışa-atışa kəndə daxil oldular. Bir neçə erməni öldürdükdən sonra kənddə olan mal-dövlətdən qənimət kimi götürüb özləri ilə geri qayıdanda meşələrdə gizlənmiş ermənilərlə atışmaları oldu və müsəlmanların tamahkarlığı ucundan bir neçə nəfər şəhid oldu. Müsəlmanlar şəhidlərin meyidlərini özləri ilə götürüb geri qayıtdılar.

**1906-cı İL İYUL AYINDA ŞUŞA ŞƏHƏRİNDƏ BAŞ VERMİŞ ERMƏNİ-MÜSƏLMAN DAVASI**

O vaxt ki, böyük dava (1905-ci il) sakit



Mir Möhsün Nəvvab

olmuşdu, erməni tayfası müsəlmanların, müsəlmanlar isə ermənilərin bazarına gedir, alış-veriş edirdilər. Hərçənd ki, yollar açıq idi, amma ermənilər yenə düz durmurdular: tək-tək əlsiz- ayaqsız kasıbkar adamları oğurluq ilə tutub öldürürdülər. Müsəlmanlar da onların əvəzini çıxırdılar.

Ermənilər müttəsil (arası kəsilmədən), min cür hiylə ilə hər yerdən hərbi sursat gətirərək, dava üçün tədarük edirdilər. Onlar əlavə maşınlar, nasoslar, tüfənglər, toplar, barıt, bombalar və başqa silahlar cəm edib, daha çox müharibəyə hazırlaşırdılar. Bununla bərabər, onlar gələcək vuruşmaların üsul və yollarını müzakirə etdikdən sonra belə bir qənaətə gəldilər ki, müsəlmanlara sarsıdıcı zərbə endirmək üçün pul qüvvəsinə hiylə işlədilərək rus ordusunun və silahının ermənilərə kömək göstərməsi təmin edilməlidir. Bu hiyləni həyata keçirmək üçün yeganə yol rus generalını pul ilə ələ almaq idi.

Birinci (1905-ci il) erməni-müsəlman davasında sülh və əmin-amanlıq yaratmaq üçün Şuşaya göndərilmiş Qalaşakov (Kalaşakov) adlı bir rus generalı var imiş. Həmin il o, zahirən ermənilərə yaxınlıq göstərməmişdi. Amma indi, ermənilərin məşvərətindən sonra duma qlavası erməni Kiki Kələntərov onu yaxşı öyrənmiş, onunla söhbət edib, ermənilərə qarşı rəğbətini bildikdən sonra generalın Şuşa şəhərində üsul-idarənin rəhbəri təyin olunması üçün onun razılığını almışdı.

Kiki Kələntərov müsəlmanların nümayəndələrini çağıraraq deyir:

— Şuşada bu iki millət arasında ədalətli sülh yaratmaq üçün bir rəhbər təyin etməliyik. Mən çox düşündükdən sonra belə qənaətə gəldim ki, bu vəzifəyə general Qalaşakovdan başqa bir kəsi təyin etmək olmaz. Hərçənd ki, o, əvvəllər bizim erməni tayfasilə yaxşı dolanmadı, kəndlilərimizi tovladı, kazaklar kənd əhlinin övrətlərinə xəyanət etdilər. Amma əlac yoxdur, onu rəhbər təyin edək.

Biçarə müsəlmanlar əvvəllər Qalaşakovdan zahirən yaxşı münasibət gördüklərindən razı oldular. Hər iki tayfanın razılığına əsasən general həmin vəzifəyə təsdiq edilərək, Qalaya göndərildi. Qalaşakov Şuşaya gələn kimi ermənilər məhəlləsində Kələntərovun qabaqcadan hazırladığı iqamətgahda yerləşdirildi. Onun əmrilə elə ilk günlər müsəlman məhəllələrində olan rus ordusunun topları erməni küçələrinə keçirildi, kazaklar və əsgərlər isə erməni məhəlləsi səmtində olan Köçərli məscidinin ətrafında qurulmuş çadırlarda yerləşdirildi.

Hər gecə Kiki Kələntərovun başçılığı ilə, erməni tayfasının hesabına general Qalaşakovun mənzilində kef məclisləri qurulurdu. Kələntərovun seçdiyi və generalın qulluğuna təyin etdiyi 2—3 nəfər xoşsurət erməni övrətləri gecə-gündüz ona xidmət edirdilər. Kələntərov gecə məclisləri əsnasında Qalaşakova və onun kazaklarına neçə min manat rüşvət verərək, Qalaşakova öz məqsədini izhar etdi. Qarşıdakı erməni-müsəlman davasında rusların onlara kömək etməsini və bu köməyin yerinə yetirilmə yolları ilə əlaqədar tədbir tökməsini generaldan xahiş etdi. Qalaşakovun tədbirilə Kələntərov və qımdatlar ətraf kəndlərə, eləcə də Gəncəyə, İrəvana və başqa şəhərlərə kağız yazıb göndərdilər. Həmin kağızda hər kənddən orta hesabla 30-100 nəfər silahlı dəstələrin Şuşaya göndərilməsi tələb olunurdu. Tezliklə Qalada yeddi min silahlı erməni ordusu hazır oldu. Onların arasında Osmanlı tabeliyində olan ərazidən gələn erməni dəstələri də var idi. Beş ədəd rusların, 6 ədəd isə ermənilərin topları var idi.




General və ermənilər qərara aldılar ki, davanı iyulun 12-də başlasınlar.

Rusların istədiyi bu idi ki, bu iki millət bir-biri ilə dava edib, bir-birinə məşğul olsunlar, tainki dövlət fərağat olsun, çünki millətin zəif və kasıb olmağı dövlətin silahıdır.

Neçə gün bundan (yəni, iyulun 12-dən) qabaq səkkiz müctəhid şəriətmədardan fitva gəlmişdi ki, müdafiə və vuruş zamanı başqa millətə əşya, xüsusilə vuruş sursatı və müdafiə üçün lazım olan malları satmaq olmaz. Ona görə cəmi müsəlman tayfası Qalada və başqa yerlərdə ermənilərə ərzaq, taxıl və sair malların satışını dayandırdı. Buna görə ermənilər çox çətinliyə düşmüşdülər. Əhvalatı həddindən artıq şişirdərək, Qalaşakova xəbər verdilər və müsəlmanları təqsirləndirdilər. General çox xatircəmliklə ermənilərə söz verdi ki, bu neçə min ermənilərlə mənim qoşunum müsəlmanları bir sutkada, yəni 24 saatda tar-mar edib, öləni öldürəcək, ölməyənini dağlara, daşlara pərakəndə edəcəkdir.

Bu davanın necə hazırlandığını erməni tayfasının mötəbərləri tam aydınlığı ilə öyrənib (vuruş başa çatdıqdan və barışıq əldə edildikdən sonra M. M. Nəvvaba), özləri danışmışlar. Qalaşakov söz verib ki, onun tədbirilə erməni silahlıları və rus əsgərləri müsəlmanların evlərini, dükan və bazarlarını tamamilə yandırıb, özlərinin qırılanını qıracaqlar, qalanını isə büsbütün Böyük məsciddən aşağı məhəllələrə qovacaqlar. General rus kilsəsindən başlayaraq, Böyük məscidə kimi Rastabazarı, meydanı, Şeytanbazarı və bütün evləri darmadağın edib yandırmağı öz üzərinə götürür. Bundan sonra vuruşun davam etdirilməsi və yaxud müsəlmanlarla barışmalarını ermənilərin öz öhdəsinə buraxmışdır. Kiki Kələntərov Qalaşakovun bu planını qəbul etmiş və generala 10000 manat rüşvət verərək belə ittifaqa gəlirlər ki, generala verilən puldan əlavə padşahlıq rus topunun hər atəşinə 15 manat, çar ordusu əsgərlərinin tüfəngdən atdıqları hər bir gülləyə isə bir manat pul verilsin.

General Kələntərovla əvvəlcədən tökdükləri tədbirə əsasən, rus əsgərləri erməni keşikçilərindən birini öldürərək müsəlman səmtə atdılar və sonra da səs saldılar ki, müsəlmanlar erməni keşikçisini öldürərək başını kəsmiş və tüfəngini də aparmışlar. Qabaqcadan hazırlanmış hiyləyə əsasən həmin vaxt rus əsgərlərindən iki nəfər də gedib, müsəlman məhəlləri tərəfdən ermənilər səmtə güllələr atırlar. Ermənilərin avamları çığırışıb generalın yanına gedirlər və deyirlər ki, müsəlmanlar bir keşikçi öldürüb, erməni məhəlləsinə neçə güllə atıblar. Generalın hiyləsi də bu idi ki, xalqı müsəlmanlara qarşı qaldırsın. Sonra Qalaşakovun əmrilə erməni tüfəngdarları səngərlərə bölüşdürüldü. Ruslar da dəstə-dəstə gəlib, müsəlmanların səngərlərini mühasirə etdilər. Ruslar və ermənilər müsəlman səngərlərini güllələbaran etməyə başladılar.

Pəs cumada-s-səni ayının üçüncü günü—çərşənbə günü—yəni qərarlaşdıqları kimi, iyulun 12-də qımdatlar generalın məsləhətilə günorta vaxtı davanı başladılar. Əvvələn qımdatın biri, müəzzin axırıncı «la ilahə illəllah» sözlərini deyən məqamda Böyük məscidin minarəsinə bir güllə atdı. Güllə müəzzinə toxunmayıb, minarənin sütununa dəydi. Bunu görən "müsəlmanlar halətdən çıxıb, şaraq-şaraqla dükan-bazarı bağladılar. Yarım saat ərzində tamam silahlandılar və üz qoydular səngərlərə və girəvəli yerlərə. Bu halətdə divan işçiləri və generalın əli altında olan çinovniklər hiylə ilə müsəlmanların içinə gəlib, uca səslə müsəlmanları sakit elədilər ki, bu dava sizinkilərlə deyil, kazaklar ermənilərlə dava edir. Bu general daha bir hiylə işlədərək qabaqcadan lazımi təlimat verib, bir rus zabitini öz dəstəsilə müsəlman məhəlləsində yerləşdirmişdi. Müsəlmanlarla dostluq etdiyinə görə, həmin zabitə inanıb, ehtiram edirdilər.

**(Ardı var)**

574:1.QXD 15.04.2024 9:43 Page 8



# Qədim Kürd Xalqı Dövlətləri və dövrləri!

**(Ardı var)**

Bu cür faktlar etnik assimilyasiya prosesində müəyyən rol oynayırdı. 1930-cu ildə aparılan bir araşdırma göstərdi ki, Laçın və Kəlbəcər rayonlarındakı bir sıra etnik kürd kəndlərin sakinlərinin ana dilləri artıq Azərbaycan dilidir. Halbuki bu kəndlərdə 40 yaşdan yuxarı kürdlər kürd dilində danışa bilirdilər. Azərbaycanda kürdlərin daha yığcam məskunlaşdığı yerlərdə tamamilə kürd dili qorunsa da burada da kürd dilinə Azərbaycan dilinin təsiri hiss olunurdu. Azərbaycanın digər etnik azlıq olan regionları ilə müqayisədə bu regionda Azərbaycan dilini bilməyən kürd kəndi yox idi. Kürdlərin assimilyasiyasını tətikləyən bir digər amil də kürdlər ilə azərbaycanlılar arasında teztez qarışıq nikahların baş verməsi idi. Bu və ya digər təbii amillər kürd dilinin regionda xeyli zəifləməsinə gətirib çıxardı.

Təbii amillərlə yanaşı kürd dili dövlət tərəfindən də sıxışdırılmağa başlandı. Leninin ölümündən sonra SSRİ Kommunist partiyası Baş katibi seçilən Stalinin zamanında inzibati anlamda hər respublikada etnik azlıqlara qarşı dövlət assimilyasiyası siyasətinə başlandı. 1929-cu ildə yeni regionlaşma ilə əlaqədar olaraq kürd və qismən azərbaycanlı əhalisi olan Kürdüstan uyezdində üç müstəqil rayon yaradıldı: Laçın, Kəlbəcər və Qubadlı (Bukshpan, 1932:10). Azərbaycan kürdləri üçün Azərbaycan dilli məktəblərin yaradılması onların kürddən azərbaycan dilinə keçməsində böyük rol oynadı.

30-cu illərdən başlayaraq, bir çox Qafqaz millətləri kimi kürdlər də Stalin tərəfindən həyata keçirilən bir sıra represSiya tədbirləri ilə üzləşməyə başladılar. 1937-ci ildə minlərlə kürd zorla Azərbaycandan Qazaxıstana, digər Orta Asiya respublikalarına və Sibirə deportasiya edildi. 1937-ci il deportasiyasında uşaq olan Nadir Nadirov bunu belə xatırlayır: "Bütün yetkin kişilər bir yerə toplanaraq qatarla aparıldı, onlardan heç biri ilə bağlı sonra məlumat əldə edə bilmədik. Kişilərin ardınca qadınlar və uşaqlar evlərini və malqaralarını tərk etməyə məcbur edildi. Bizi heyvanlar üçün istifadə edilən qatar vaqonunda naməlum istiqamətə aparırdılar. Heç kim niyə və hara aparıldığını bilmirdi. Sağ qalanların yaxınlarının yerini tapması bir neçə il çəkdi. Bir çox məskunlaşma yerlərində komendant saatında yaşayırdıq, şəhər və ya kəndləri icazəsiz tərk etmək 25 il həbs cəzası ilə nəticələnə bilərdi" (McDowall, 1996:492).

Azərbaycan Kommunist Partiyası Mərkəzi Komitəsinin o vaxtkı 1-ci katibi olan Mircəfər Bağırov regionda yaşayan digər kürdləri qorxutmağa yönəlik belə bir açıqlama ilə yadda qalır: "Əgər Ermənistandakı və Naxçıvan Muxtar Sovet Sosialist Respublikasındakı soydaşlarımız kimi repressiya olunmaq istəmirsinizsə, "kürd" sözünü daimi unutmalısınız." (Aliyeva, 1993:97) Kürd əhalisi ilə aparılan bütün maariflәndirmə işləri azalmağa başladı, məktəblər bağlandı, qəzetlərin yayımı dayandırıldı. "Kürd" sözünün işlədilməsi dövri mətbuatda qeyri-rəsmi senzuraya salınmışdı.

Şimali İranda bir kürd qadını. Foto Anton Sevryugin.

1933-cü ildə direktoru Müseyib Axundov olan Kürd Pedaqoji Texnikumu Laçında açılsa da tezliklə bu texnikum ləğv dildi (Aristova, 1966:205-206). 1937-ci ildə əksər kürd kommunistlər, sovet və partiya işçiləri, ziyalıları həbs olundu. 1937-38-ci illərdə Azərbaycan və Ermənistandan olan kürdlər Orta Asiya respublikalarında və Qazaxıstanda məskunlaşmağa başladılar. Əgər Kürdüstan muxtariyyətinin quruluş illərində burada 48 min kürd yaşayırdısa, 1979-cu il siyahıyaalınmasına əsasən Azərbaycanda bir nəfər də kürd yox idi. Millət və millətçilik məsələləri üzrə rusiyalı ekspert Valeri Tişkov bunu belə şərh edirdi: "İttifaq respublikaları azlıqlara qarşı Moskvadan daha sərt davranırdı. Sovet İttifaqının parçalandığı ərəfədə bu kimi milli məsələlərlə bağlı bütün diqqətlər Moskvaya yönəldi, ancaq Gürcüstan, Azərbaycan və Özbəkistan ən böyük assimilyasiya edən dövlətlər sırasında idi." (De Waal, 2003 :133).

Laçın və Kəlbəcər kürdləri

Kürdistan uyezdində ən çox kürd yaşayan iki region Laçın və Kəlbəcər idi. 19-cu əsrin ortalarında Kürdhacı və ya Qasımuşağı adlandırılan tayfa Laçında Ərikli, Qasımuşağı (indiki adı Kürdhacı), Ələkçi, Bozdağan, Piçənis, Nağdalı, Çorman (eyni adlı kənd Kəlbəcərdə də mövcuddur), Hacısamlı və Şamkənd kəndlərini yaratdılar (Qeybullayev, 1986:102). Laçın rayonunun Karakeşiş kəndi isə İrəvan quberniyasının Şərur-Dərələyəz uyezdindən olan mühacirlər tərəfindən qurulmuşdu.

XIX əsrin ikinci yarısında Azərbaycana köç edən kürd tayfasından biri də Şahsuvarlılar idi. Onlar da keçmiş Kürdüstan uyezdi ərazisinə Şərur-Dərələyəz uyezdindən köçmüşdü. Bu tayfa Laçın rayonunun Minkənd kəndində yerləşdi. Şahsuvarovlardan bir qədər sonra Minkəndə daha bir neçə kürd ailəsi gəldi. Statistikaya görə, 1888-ci ildə kənddə 23 kürd və 47 erməni ailəsinə məxsus təsərrüfat mövcud idi. Laçın rayonunun digər kəndləri Bozlu, Ağcakənd, Mirik, Kamallının 19-cu əsrin sonlarında əhalisi tamamı kürdlərdən ibarət idi. 1960-larda artıq bu kəndlər azərbaycanlılarla kürdlərin ortaq kəndləri kimi xarakterizə edilirdi.

Azərbaycanın digər böyük kürd kəndlərindən biri də Kəlbəcər rayonunun Zəylik kəndidir. Bu kənddə yaşayan kürdlərin əcdadları 1826-1828-ci illərdəki ikinci Rusiya-İran müharibəsi zamanı Qacar hakimiyyətinin təzyiqi ilə Azərbaycana gəlmişdi (Aristova, 1962:23). Belə ki, XIX əsrin sonlarında Yelizavetpol quberniyasının Zəngəzur uyezdinin Şahsuvarlı kənd qrupu 7 kürd kəndindən ibarət idi: Şahsuvarlı, Minkənd, Bozlu Kamallı, Ağkərli (Boznalı), Alpaut, Varazgun, Minkənd-Həsənli. Fərəhqanlı kənd ərazi qrupuna isə 2 kürd kəndi daxil idi: Fərəhqanlı və Həsənli (Aristova, 1962:28).

Eyni zamanda qeyd etmək lazımdır ki, Kəlbəcərdəki kəndlərin bir hissəsi Laçından köçən kürdlərin hesabına yaranıb. Məsələn, Kəlbəcər rayonunun Oruclu və Ağcakənd kəndlərinin əsası Laçın rayonunun Ağcakənd və Minkənd kəndlərindən gələn kürdlər tərəfindən qoyulub (Aristova, 1966:40). Yerli əhalinin danışdığına görə, Oruclu kəndi bu əraziyə girən ilk şəxsin adını, Ağcakənd isə kürd qızı Ağcanın adını daşıyır. Kəlbəcər rayonundakı Oruclu və Ağcakənd kəndlərinin qurucuları kürd olmasına baxmayaraq onların adları Azərbaycan (türk) mənşəlidir. Bunun əsas səbəbi Azərbaycan kürdlərinin yerli türklərlə sıx qaynayıb qarışması, hətta öz aralarında belə bu dildə danışmasıdır.

Azərbaycan kürdləri qonşu Ermənistan kürdlərindən fərqli olaraq öz uşaqlarına da türk mənşəli adlar verirdilər.

Qubadlı və Zəngilan kürdləri

Azərbaycanda oykonim kimi rayon adlarından sadəcə Qubadlı və Zəngilan kürd mənşəlidir. Zəngilan Azərbaycanda kürdlərin yaşadığı ən qədim ərazilərdən hesab edilir. 13-cü əsrə aid mənbələrdə qeyd edilən Zəngilan oykonimi Azərbaycanda qədim kürd yaşayış məskənlərinin mövcudluğunu göstərir. İranın cənub-qərbindəki Bəxtiyari tayfalarından biri "Zəngi" adlanır. Zəngilər isə kürdlərlə qohum olan lor (Bəxtiyari) tayfalarından biridir. Zəngilan rayonunun adı isə həmin kürd-bəxtiyari tayfasının adından qalıb (Əliyarlı, 2013:247). Bəxtiyari adı hazırda da regionun kəndlərində mövcuddur. Zəngilanla qonşu olan Qubadlı rayonunda hələ də Bəxtiyarlı oykonimi mövcuddur və Zəngi etnonimi bu bölgənin kürd kəndlərinin dördüncü adlarında qorunub saxlanılır.

Zəngilana kürdlərin bir sonrakı köç dalğası 18-ci əsrin sonlarında başlayır. İran Azərbaycanında yerləşən Mincivan bölgəsindən olan kürd ailələri şimala köçərək indiki Zəngilan və Ordubad rayonunda eyni adlı kəndləri qurdular (Qeybullayev, 1986:101). Ordubadda yerləşən Mincivan kəndi bugünümüzə gəlib çatmasa da, Zəngilan rayonundakı Mincivan kəndi böyüyərək işğal ərəfəsində qəsəbə statusunu daşıyırdı. Azərbaycanda Sovet hakimiyyətinin qurulduğu ilk dönəmlərdə Kəlbəcər, Qubadlı, Laçın kürdləri ilə müqayisədə Zəngilanda yaşayan kürdlərin sayı xeyli az idi. Bu səbəblə bu rayon Kürdüstan uyezdinə daxil edilmədi. Burda yaşayan kürdlər, dil statusu olmaması və digər təbii və qeyri-təbii amillər nəticəsində assimilyasiyaya uğrayaraq tamamilə türkləşdilər.

Azərbaycan kürdlərinin yaşadığı bir digər ərazi isə Qubadlı idi. Qubadlı kürdlərinin çoxu bu əraziyə Çar Rusiyası dövründə köçən mühacirlərin nəsillərindən formalaşmışdır. Rayonun adı olan "Qubadlı" oykonimi kürd mənşəlidir. Qubadlı adında kürd tayfası indi də İranda yaşamaqdadır (Qeybullayev, 1986:101). 19-cu əsrin ikinci yarısında İran hakimiyyətinin təqibindən qaçan və burda yaşayan qohumlarına sığınan kürdlərin axını Qubadlıdakı etnik xəritəni xeyli dəyişdirdi.

Qubadlıya ilk kürd tayfalarının axını 19-c əsrin əvvəlində başlayır. XVI-XVII əsrlərdə Türkiyədə, Van gölünün şərqində yaşayan Cibikli və Mahmudlu tayfası sonradan digər tayfalara qarışaraq Azərbaycanda bir sıra kəndlər formalaşdırdı. (Qubadlıdakı Aşağı Cibikli, Yuxarı Cibikli, Mahmudlu kəndləri, Füzulidəki Birinci Mahmudlu, İkinci Mahmudlu, Üçüncü Mahmudlu kəndləri, Cəbrayıldakı Mahmudlu kəndi, Şəmkirdəki Mahmudlu kəndi və İmişli rayonundakı Kürdmahmudlu kəndi).

Kürd xalısı, Qərbi Persia, 19-cu əsr. Ensklopaedia Britannica.

Qubadlıya kürdlərin ən böyük köçü isə 1807-ci ildə baş verir. Bu zaman İrandan Qarabağ xanlığına 600 kürd ailəsi köçür. Bu ailələrin çox hissəsi hazırki Qubadlı rayonun ərazisindəki kəndlərdə məskunlaşır (Bukshpan, 1932:56). 1820-ci ildə İrandan Azərbaycana "Mahrızlı" adında kürd tayfasının köçü başladı. Mahrızlı etnonimi bugün Qubadlı rayonunda və Ağdam rayonundakı Mahrızlı kəndində özünü göstərir. Qubadlıda İrandan gələn kürd tayfaların formalaşdırdığı kəndlərlə yanaşı tarixi qədim dövrlərə gedib çıxan kürd kəndləri də mövcuddur. Bu kəndlər Azərbaycan-İran sərhədi boyunca yerləşirdi və Rusiya-İran müharibələrindən əvvəl İran təbəələri idi. Bu kəndlərdən misal olaraq Qubadlı rayonunun Zilanlı və Şotlanlı (eyni adlı kənd hazırda Ağcabədi və Ağdam rayonunda mövcuddur) kəndini göstərmək olar (Aristova, 1966:39).

Naxçıvan kürdləri

Naxçıvan ərazisində kürdlərin ilk köçü ikinci Rusiya-İran müharibəsindən sonrakı dövrə təsadüf edir. İlk öncə Arazboyu ərazilərə Zilanlı tayfa ittifaqının köçü reallaşdı. Zilanlı tayfa ittifaqı Buriki, Cəlali, Milaya, İradi, Zabuq, Cunuq, Çaxmanlı, Arizanlı və Halisanlı tayfalarından ibarət idi. Bu tayfaların bir qismi Arazboyu ərazilərə, əsas qismi isə İrəvan quberniyasının Naxçıvan uyezdinə köçdülər.

Naxçıvanda yaşayan kürdlər barədə məlumatlar çox ziddiyətlidir. 1833-cü ilin məlumatlarına görə, Naxçıvanda yaşayan kürdlər 9 tayfa icmasından ibarət idi: Hacısamlı, Şadmanlı, Kulukçu, Küləqanlı, Həsənalli, Bozlu, Fərruxxanlı, Püsyan və Milli (Qeybullayev, 1986:101). Naxçıvanda Milli, Hacısamlı, Əliyanlı, Şadmanlı, Püsyan, Küləqanlı, Fərruxanlı, Bozlu və Həsənalili tayfaları yaşayırdı. Kürd tayfası olan Bayramlı indiki Ermənistanda qalan Əzizpəyəsi, Damlı, Zorkeşiş, İsgəndərxanası, Qovuşuq, Aşağı Uluxan kəndlərini formalaşdırmışdı.

1918-1920-ci illərdə bu regionda daşnaklar tərəfindən etnik təmizliyə məruz qalanlardan biri də kürdlər idi. Bu səbəblə artıq Azərbaycanda Sovet hakimiyyəti qurulanda Naxçıvanda yaşayan kürdlərin sayında xeyli azalma baş vermişdi. 1931-ci ilə qədər Arazdəyən stansiyasının ərazisindəki Sədərək ətrafında yerləşən ərazilərdən və Culfa-Bakı dəmir yolu xəttinin sərhədlərindən Araz çayına qədər olan ərazidə 7 kürd kəndi var idi: Qaraburun, Yanıx, Qorxmaz, Gələvan, Mahmudkənd (indiki Şərur), Vodokaçka və Kirqaç. Bütün bu yaşayış məntəqələri tayfa adını daşıyan kəndlər idi: Qaraburun və Yanıx kəndlərini Şavliki, Qorxmaz kəndini Banuki, Kirqaç kəndini Başki, Gələvan, Mahmudkənd və Vodokaçka kəndini isə Qariki tayfası qurmuşdu (Bukshpan, 1932:37-38). Naxçıvan MR-də yerləşən kürd kəndləri sırasına Dərəkənd də daxil idi. Bundan başqa XX əsrin 80-ci illərinə qədər Ordubadın Kilit kəndi özünəməsus bir dildə danışırdı. Kilit olaraq təsnifləşdirilən bu dili bir çox tədqiqatçılar kürd dilinə yaxın bir dil hesab edilir (Baskakov, 1971:34). Bu dil XX əsrdə Azərbaycanda ərəb dilindən sonra ölmüş ikinci dil kimi qəbul edilir.

**(Ardı var)**

***Səhifəni hazırladı: Tahir Süleymen***

574:1.QXD 15.04.2024 9:43 Page 9





**Vidadi Qurbanov**

## AGLA, TELLI SAZIM, AGLA

Geri dönməz bu karvanın,yolu hardan haradı?
Karvanbaşı başın əyib;- Nigarandı, nalandı.
Vətənimiz əsir düşdü, sərvətimiz talandı,
Harda qaldın, ağlamırsan, telli sazım, ağla sən.

Ağbirçəkli anaların sinəsində yara var,
Gülçöhrəli körpələrin taleyində qara var.
Yetim qalmış bu millətim hara getsin... hara var?
Harda qaldın, ağlamırsan, telli sazım, ağla sən.

Ruhlarımız girov qaldı, töhmətini götürdük,
Puça döndü həyatımız, mənasını itirdik.
Qaçqın-köçgün damğasıyla ömrümüzü bitirdik,
Harda qaldın, ağlamırsan, telli sazım, ağla sən.

Köhlən atlar yəhərlənib, boş yəhərdə gəm yeyir,
El-obamız diyar-diyar, pərən düşüb, qəm yeyir.
Naxələflər yurdu satdı, kefin çəkir, dəm yeyir,
Harda qaldın, ağlamırsan, telli sazım, ağla sən.

Nə ölməyə üzümüz yox, yaşamağa haqqımız,
Viran olub yurd yerimiz, talan olub taxtımız.
Gülə bilmir üzümüzə qara gəlmiş baxtımız,
Harda qaldın, ağlamırsan, telli sazım, ağla sən.

Qorqud ruhu yurd yerində qopyz calıb aglayır,
Ələskərin nur qəbrini ah-nalələr dağlayır.
Qaçaq Nəbi məzarından Boz atını haylayır,
Harda qaldın, ağlamırsan, telli sazım, ağla sən.

**Bakı - 2006**

Rəfayıl Cəlil oğlu Mayılov 1971-ci ildə Laçın rayonunun Şeylanlı kəndində kürd ailəsində dünyaya göz açmışdı. Ailəlidir, bir övladı var, ali təhsilə malikdir. Gözəl şeirlər yazır, bir kitabın müəllifidir.

Qarabağ döyüşlərində həmişə ön cərgələrdə olan Rəfayıl, tağım komandiri vəzifəsinə qədər yüksəlmişdi.Onun bir arzusu var, oda tapdaq altında olan vətən torpaqlarını mənfur düşmənlərin tapdağından azad etmək və doğma yurd yuvasına qayıtmaqdır.

Rəfayılın şeirlərində vətən həsrəti, vətənə məhəbbət, yurd yanğısı, özünü daha qabarıq göstərir. O, həm də kürd dilində şeirlər yazır. Şairin bir neçə şeirini oxuculara təqdim edirik və ona uğurlar diləyərək deyirik ki, gün o gün olsun, vətəndə qalibiyyət şeirləri yazasan.



## RABE, RABE!

Laçîn maye li bin destan,
Birînên dil wek goncale.
Pir girane va qul, va jan,
Bûye revoke, gel bê hale.

Rabe, rabe Azerbaycan!
Hilgir waran, ji dest maran.
Li ber neyar, bibe beran,
Bavpîre me Ristem Zale.

Rafayil bê Laçîn maye,
Va belaye, ax û vaye.
Va çi bager, va çi baye,
Gel bê ware, gel bê male.

## LAÇÎNÊ MIN TU LI KUYE?

Warê eylo, dîyarê baz,
Laçînê min tu li kuye?
Kane govend,kane "Qaz-qaz",
Laçînê min tu li kuye?

Li dîrok me dît pir-pir gesp,
Te firotin, dijmin kir qesp.
Dillerzîne li ser te hesp,
Laçînê min tu li kuye?

Li te gundan çima revî?
Tu şemal bû, niha şevî.
Mertalê kurd bi çar devî,
Laçînê min tu li kuye?

Bila yekbe Azerbaycan,
Yekdî dibe bi dijmin jan.
Refayil jî bi te qûrban,
Laçînê min tu li kuye?

## LAÇIN

Elə qovrulmuşam çıxıb cızdığım,
Həsrətinə dözmək olmur, ay Laçın.
Göynəyir sinəmdə hər bir an dağım,
Min-min zəhmətimiz olub zay, Laçın.

Xəyanətə qurban etdilər səni,
Düşmənə verdilər cənnət vətəni.
Qəlbimdə el dərdi, yurdun şivəni,
Olub qəm dəryası, olub vay, Laçın.

Sənsiz didələrim qan ağlayır, qan,
İnan, xilasına hazıram hər an.
Yaralı ürəyim ayrılığından,
Olub qəmlə dolu bir saray, Laçın.

Vətəndə-vətənsiz olmaq bəladı,
Başlara töhmətdir qaçqınlıq adı.
Böyük tanrı olsun xalqın imdadı,
Dərd qəlbimdə olub laybalay, Laçın.

Bircə çiçəyini üzüb-dərməyə,
Şeylanlı kəndimə salam verməyə,
Bir dəfə üzünü gəlib görməyə,
Olaydım bir uçan torağay, Laçın.

Rəfayılam, sənsiz qalmışam yetim,
Torpağına gəlib mən necə yetim?
Gecə də, gündüz də, budur niyyətim,
Şirin canım olsun sənə pay, Laçın.

# LAÇIN DƏRDİ, LAÇIN HƏSRƏTİ...

Təbiətin ən füsünkar gözəlliyini özündə cəmləşdirib, xüsusi bir ecazkar cazibəyə malik olan, kiçik Qafqaz dağlarının qartallar oylağı olan İşıqlı dağının ətəklərində, Laçın rayonunun Kamallı adlı bir kürd kəndi yerləşirdi. Ərazisi 1900 ha çatan bu kəndin təsərrüfatı 180-ə, əhalisinin sayı isə 2000 nəfəri ötüb keçmişdi. Əhalinin əsas məşğuliyyəti heyvandarlıq və əkinçilik idi. Kəndin o dövrdə 800-900 baş iribuynuzlu mal-qarası, 6-7 min baş xırda buynuzlu davarı, meyvə və bostan məhsulları yetişdirmək üçün böyük bağ sahəsi var idı. Kolxoz təsərrüfatında isə 400 baş iribuynuzlu mal-qara, o cümlədən 150 baş sağmal inək, 4000 baş xırda buynuzlu davarı var idi. Əhalinin maddi və mənəvi vəziyyəti olduqca yaxşılaşmışdı. Camaatın istifadəsində 2 ədəd su artezian quyusu,müasir tipli böyük mağaza, çörək bişirmə müəssisəsi, rabitə şöbəsi, 170 nəfərlik komutator, mərkəzi kitabxana, həkim məntəqəsi, on illik orta məktəb binası, tele ötürücü stansiya və s.var idi. Kənd gənclərinin təşəbbüsü ilə şəhər tipli mədəniyyət evi inşa edilmişdi.

Kolxozun iqtisadiyyatı çox güclü şəkildə inkişaf edir,əhalinin maddi və mədəni rifahı yüksəlirdi. Təsərrüfatın 2 ədəd kombayını, 3 ədəd tırtıllı traktoru, 3 ədəd təkərli traktoru, 1 ədəd ekskavatoru, 8 ədəd yük avtomobili, yem dəyirmanı və digər kənd təsərrüfatı texnikası var idi.

Sabiq kolxoz sədri Cəfərov Ələddinin təşəbbüsü ilə bu zonada ilk olaraq kənddə elektrik dəyirmanı tikilərək son tamamlama işləri görülürdü. Lakin bədnam və mənfur qonşularımızın (onlara qonşu demək mümkünsə) məkrli və iyrənc siyasəti güllü-çiçəkli, axar-baxarlı ərazilərimizi, münbit torpaqlarımızı zəbt eləmək, mənimsəmək niyyətləri çox-çox qabaqcadan hazırlanmış bir plan idi.

Demək olar ki, erməni faşistlərinə 1988-ci ildən doğma Azərbaycanımızı parçalamaq, torpaqlarını işğal etmək, xalqlarımızın başına olmazın müsibətlərini gətirmək üçün fürsət düşmüşdü.

1992-ci il mayın 8-də alınmaz qala olan Şuşa şəhərimizi zəbt etdikdən sonra, Ermənistan və Rus orduları Dağlıq Qarabağ və Ermənistan tərəfdən Laçın rayonunu mühasirəyə aldılar. Tanklarla, toplarla və vertolyotlarla silahlanmış güclü hərbi birləşmələrə qarşı əliyalın camaat nə edə bilərdi?

O zamankı hakimiyyətin səriştəsizliyi nəticəsində orduda özbaşınalıq, fərarilik baş alıb gedirdi. Laçın beş-on nəfər özünü müdafiə könüllü dəstələrinin ümidinə qalmışdı.

Dövlət tərəfindən heç bir kömək göstərilmədiyinə görə "Laçın dəhlizi" adı ilə məhşur olan Laçın-Şuşa, Laçın-Zabux yolu və bütövlükdə Laçın rayonu 18-i may 1992-ci ildə süquta uğradı.

Rus ordusu ilə birləşən Ermənistan ordusu əliyalın xalqımıza divan tutdu, kəndləri yandırdı, qız-gəlini, qoca-cavanı, uşaq-körpəni əsir tutdu, başlarını kəsdi, xalqımızı soyqırıma məruz qoydu.

Laçın şəhəri və 130-a yaxın yaşayış məntəqəsi, 60 min nəfərə yaxın olan əhalisi bir faciə ilə üz-üzə qaldı. Rayon əhalisi respublikamızın əllidən çox rayon və kəndlərinə səpələndi.

Hal-hazırda, təkcə Kamallı kənd əhalisi, on iki müxtəlif bölgədə məskunlaşmış, məşəqqətli və amansız məcburi köçkün həyatı sürürlər. Düz 14 ildir ki,vətən həsrəti onların qəlbini, ürəklərini parçalayıb üzür. Qocalarımız və orta yaşlı əhalimiz,demək olar ki, yurd həsrətinə dözməyib qürbət diyarlarda vətən həsrətiylə dünyalarını dəyişiblər.

Dövlətimizin məcburi köçgün və qaçqınlara göstərdiyi qayğı hamımız tərəfindən razılıqla qarşılanır. Lakin nə qədər firavan və qayğısız yaşasaq da bizə öz doğulub boya-başa çatdığımız elimiz-obamız gərəkdir.

**Əzizim,vətən yaxşı,**
**Geyməyə kətan yaxşı.**
**Qürbət cənnət olsa da,**
**Ölməyə vətən yaxşı.**

-xalq bayatımız bizim dərdimizi çox dolğun bir tərzdə ifadə edir.

**Bu gün hüzn günüdür!..**
**Bu gün əzm günüdür!..**

Bu gün biz birləşib torpaqlarımızı qanımız bahasına olsa belə almalıyıq!

Alçalmış, təhqir olunmuş, şərəf və ləyaqətimizi geri qaytarmalıyıq! Artıq vaxtdır, birləşib erməni cəlladlarını, torpaqlarımızdan qovub çıxarmalı, el-obamızı öz doğma yurd-yuvalarına qaytarmalıyıq.

**Xalq səbrsizliklə o günü gözləyir!**

**Vidadi Qurbanov**

# MAHMUD BƏY SƏFİKÜRDSKİ

Mahmud bəy Bala bəy oğlu Səfikürdski
Doğum tarixi 1898-ci il
Doğum yeri Səfikürd kəndi
Vəfatı 1977-ci il

**Həyatı**

Bala bəyin üçüncü oğlu Mahmud bəy 1898-ci ildə Səfikürd kəndində dünyaya boy göstərmişdi. 1909-cu ildə Gəncə gimnaziyasına daxil olmuşdu. Gimnaziyanı bitirmədən orduya çağrılmışdı. Rus qoşunlarının tərkibində rumın cəbhəsində döyüşlərdə iştirak etmişdi. Hərbi xidmətdən sonra Gəncəyə dönmüşdü. Gəncənin müsəlman-türk əhalisinin rusların himayəsi ilə ermənilər tərəfindən kütləvi şəkildə qırılmasının qarşısının alınmasında yeni yaradılmış «Yaşıl qvardiya» adlı özünmüdafiə dəstəsinin tərkibində çıxış etmişdi. «Yaşıl qvardiya» əsasən gənclərdən, tələbələrdən ibarət idi. Mahmud bəy Səfikürdskinin döyüş təcrübəsini nəzərə alaraq, onu qvardiyanının sədr müavini təyin etmişdilər. Gimnaziyanı 1919-cu ildə başa vurduqdan sonra bir müddət Gəncə Dairə məhkəməsində müstəntiqliyə namizəd kimi hüquq elminin incəliklərini öyrənməyə çalışmışdı. Elə həmin il o, Bakıda BDU-nin tibb fakültəsinə daxil olmuşdu. Ailə vəziyyəti və maliyyə çətinlikləri ilə əlaqədar olaraq işləmək fikrinə düşmüş və ƏMT-nın rəisi Nağı bəy Şeyxzamanlı Gəncə hadisələrindən Mahmud bəyi tanıyırdı. Və şübhəsiz ki, onun ƏMT rəisinin müavini kimi mürəkkəb və məsuliyyətli vəzifəyə təyin edilməsi həm də onların bir-birilərini yaxşı tanımalarından irəli gəlirdi. Arxiv materiallarından məlum olur ki, Mahmud bəy Səfikürdski ƏMT-da rəis müavini kimi 1919-cu ildə noyabr ayının 15-dən martın 6-dək ƏMT-nın (əksinqilabla mübarizə təşkilatının) rəis müavini vəzifəsində çalışmışdı. O da bu vəzifədə hümmətçiləri təmsil edirdi. Çünki razılığa əsasən, ƏMT rəhbərliyi iki partiyadan təmsil olunmalı idi. ƏMT-nın rəis müavini vəzifəsi də hümmətçilərin payına düşürdü. Ancaq bütün bunlara baxmayaraq, arxiv sənədlərinin də təsdiq etdiyi kimi Mahmud bəy bu vəzifədə özünü layiqincə apardı, gənc respublikanın təhlükəsizliyinin təmin edilməsində öz bacarığını əsirgəmədi. Xüsusən də erməni casuslarına və denikinçilərə qarşı mübarizədə Mahmud bəy Səfikürdski bütün imkanlarını səfərbər etmişdi. Onu da deyək ki, əldə edilmiş materialların (MTN-nin arxivi, PR-1752 saylı istintaq işi) bir qismində onun bolşeviklərə qarşı da çıxışı qeyd edilir. Buna əlavə olaraq onu da demək olar ki, Nağı bəylə Mahmud bəyin barəsində söylənilən fikrə bir söykənəkdir. 28 aprel işğalından sonra bir qrup hümmətçi Azərbaycan Fövqəladə Komissiyasında işə qəbul edildi. Onlardan biri də Mahmud bəy idi. Bu elə çox uzun çəkmədi. 22 noyabr 1920-ci ildə onun həbs edilməsi barədə 1906 saylı order imzalandı. Bir gün sonra onu Quba şəhərində həbs edib Bakıya göndərdilər. Onu kommunistlərə qarşı çıxış etməkdə günahlandırırdılar. Ziddiyyətli ifadələrin nəticəsində Mahmud bəy Səfikürdski haqqında 21 yanvar 1921-ci ildə qərar çıxırıldı: o, tutduğu vəzifəsində qala bilməz. Ancaq onun «cinayət»ləri sübuta yetmədiyindən həbsdən azad etmişdi. Təqiblər davam edirdi. Belə bir vəziyyətdə Mahmud bəy Səfikürdski Azərbaycanı tərk etmək məcburiyyətində qaldı. Öncə Yuqoslaviyada yaşayıb ticarətlə məşğul oldu. Sonra Türkiyədə yerləşdi. Mahmud bəy 1977-ci ildə vəfat edib.

Mahmud bəyin Əli bəy adlı oğlu, Mələk xanım, Bilqeys xanım və Leyla xanım adlı qızları var.

## Goranboyun Səfikürd kəndi ərazisində 5 min il yaşı olan yeni yaşayış məskəni aşkar edilib

### Yaşayış yerindən çoxlu qədim əşyaları tapılıb



***Goranboyun Səfikürd kəndi ərazisində 5 min il yaşı olan yeni yaşayış məskəni aşkar edilib. «Göl yeri» ərazisində aparılan qazıntı nəticələrinin qədim dövr tarxinin öyrənilməsinə töhvə olduğu bildirilir. Yaşayış yerindən çiy kərpij , qazma şəklində evlər, təsərrüfat quyuları, ojaq yerləri, 3 insan skeleti, saxsı qablar və çoxlu sayda bəzək əşyaları tapılıb. Ərazidə tədqiqat aparan mütəxəsislərin fikrincə qazıntı işlərinin nəticəsi Azərbayjan arxeologiyasında az öyrənilən və mübahisələrə səbəb olan məsələlərə aydınlıq gətirəcək. Yeniliklər əsasən ilk Tunj dövrünə qədərki mərhələni əhatə edir.***

Tapılan kiçik öküz fiquru isə bu dövrdə insanların «toxa» əkinçiliyindən «xış»a keçdiyinə dəlalət edir. Bundan başqa metaldan dəmir ujluqlu kəsiji alətlərin hazırlanmasında istifadə olunan «bitum» məhlulu da aşkarlanıb ki, bu əvvəlki arxeoloci qazıntılar zamanı az miqdarda olduğundan indiyədək onun tərkibi öyrənilməmiş qalıb. Dövrlərə şahidlik edən bu daş natiqlərin hər parçası tarixin qaranlıq səhifələrini nurlandıran məşəl kimidir. O işığda isə əcdadlarımızın getdiyi yollara yolçuluq etmək insana mənəvi rahatlıq verir.

## Goranboyda 4500 il tarixi olan yaşayış məskəni aşkar edilib

***Goranboyda 4500 il tarixi olan yaşayış məskəni aşkar edilib. Müzəffər Hüseynov: "Hazırda ərazinin hələ ki, 100 kvadratmetri araşdırılır". Goranboyda 4500 il tarixi olan yaşayış məskəni aşkar edilib. Tarixi abidə rayonun Səfikürd kəndi ərazisində tapılıb. Ekspedisiya qrupunun üzvü, arxeoloq Müzəffər Hüseynovun sözlərinə görə 2 il əvvəl aparılan tədqiqatlar zamanı bu ərazidə içərisində 10-dan çox insanın dəfn olunduğu kurqan aşkar edilmişdi.***

"Sonradan aparılan araşdırmalar nəticəsində isə müəyyənləşib ki, qara arxac adlanan bu sahədə yaşayış məskəni də mövcud olub və yaşayış yeri təqribən 2 hektar ərazini əhatə edib. Qazıntılar nəticəsində tapılan maddi mədəniyyət nümunələri hələlik bu ərazidə yaşayan insanların toxuculuq və dulusçuluqla məşğul olduğuna dəlalət edir", - deyə o bildirib.

Bundan başqa arxeoloqların ehtimallarına görə tapılan heyvan sümükləri vasitəsilə o dövrün heyvanat aləmi barədə də informasiya əldə etmək mümkün olacaq.

Müzəffər Hüseynov əlavə edib ki, 2 ha ərazidə yaşayan insanların həm yaşayış yerləri, həm də təsərrüfat sahələri var. "Yəni burada onlar həm çörəklər bişirib, həm də, qab-qacaq hazırlayıblar. Hazırda biz onun hələlik 100 kvadratmetrini araşdırırıq", -deyə o vurğulayıb.

## Analoqu olmayan kurqan

### *Abidə tunc dövrünə, b.e.ə. III minilliyə aid edilir*

***Son zamanlar Goranboy rayonunun Səfikürd kəndi ətrafında geniş çöl-tədqiqat işləri aparılıb. Bu işlərin nəticəsində isə rayon üçün ilkdəfə olaraq eneolit dövrünə aid yaşayış məskəni aşkar edilib. Həmin yaşayış məskənində aparılan kəşfiyyat xarakterli qazıntı nəticəsindəabidənin e.ə. V minilliyə aid olduğu müəyyən edilib.***

AMEA-nın Arxeologiya və Etnoqrafiya İnstitutunun arxeoloqu Müzəffər Hüseynovunsözlərinə görə, burada eyni zamanda çoxlu saxsı məmulatlar da aşkar olunub. Bundan əlavə, kənd ətrafında son tunc-ilk dəmir dövrünə aid ikitorpaq qəbir tapılıb və qazıntı nəticəsində qəbirlərdən gil qablar, müxtəlif materiallardan, tuncdan bəzək əşyaları - muncuqlar, qolbaq yə sırğalaraşkar edilib. Ekspedisiyanın əsas uğurlarından biri Səfikurd kəndi yaxınlığında onun cənub-şərq tərəfindən ilk tunc dövrünə, b.e.ə. III minilliyəaid kurqan abidəsinin aşkar edilərək qazılması olub.

Arxeoloq Müzəffər Hüseynov onu da bildirdi ki, kurqanın diametri 16 metr, hündürlüyü 2,8 metrdir. Kurqan hündürlüyü 18-20 metrolan uzunsov-oval formalı təpənin üzərində qurulub. Qazıntı zamanı kurqan örtüyündə son tunc dövrünə aid bir qəbir abidəsi də aşkar edilərəkqazılıb. Kurqan örtüyündən aşkar olmuş sallama qəbir 2x1 metr ölçüdə olub, 110 sm dərinlikdə dəfn edilib.

Qəbirdə müxtəlif forma yə ölçüdə 5 ədəd saxsı qab, əqiqdən hazırlanan 72 ədəd muncuq, 1ədəd tunc iynə, 3 ədəd kəsici alət aşkaredilib. Əsas kurqanaltı oəbir çox maraqlıdır.

Arxeoloq M.Hüseynov onu da bildirdi kı, bu qəbir kamerasının divarları iri ölçülü əhəng daşlarından tikilib. Kurqanaltı kamera isəsərdabə tiplidir. Sərdabənin divarlarının hündürlüyü 145 sm-dir. Bu hündürlüyü həm də sərdabənin hündürlüyü kimi vermək olar.

Sərdabənin divarları isə çox yaxşı qalıb. Enli inşa edilmiş divarların şimal tərəfdə eni 1 metr 10 sm, cənub və qərb tərəfdə isə 1 metr 60sm-dir. Sərdabənin içəridən ölçüsü şərq-qərb istiqamətində 3 metr 70 sm, şimal-cənub istiqamətində 3 metr 40 sm-dir. Sərdabəyə giriş isəşərqdəndir. Girişin eni 1 metr 40 sm, giriş dəhlizinin uzunluğu isə 4 metr 30 sm-dir. Giriş dəhlizinin kənarındakı divarlar da ağ əhəng daşındantikilib. Girişdə 1 metr 70 sm plan sərdabənin ağzı 60-65 sm ölçüdə, qalınlığı 8 sm olan ağ əhəng daşı ilə örtülüb. Divarların ətrafi isə iki cərgəçay daşları ilə bərkidilib.

**Sərdabədə 19 insan skeleti aşkar olunub**

Sərdabənin içərisində onun 4 küncündə diametrləri 25x27 sm, dərinlikləri 45-50 sm olan dirək yerləri də aşkar edilib. Dirək yerlərininiçərisindən aşkar olunan kiçik və orta ölçülü çaydaşlarına əsasən gənc arxeoloq Müzəffər Hüseynov onu da ehtimal edir ki, bu dirəklərin ətrafıçay daşları ilə möhkəmləndirilib. Kameranın üst hissəsi ağac tirlərlə örtülüb. Bunu qazıntı zamanı sərdabənin içərisində yanıb kömür olan ağacqalıqları da sübut edir. Bəzi agac qalıqlarının diametri 30 sm-ə, uzunlugu isə 1 metrə qədər qalıb.

Sərdabənin üstü ağacla döşəndikdən sonra kameranın üzəri iri qaya daşları ilə təpə formasında qurulub. Sərdabənin döşəməsi ağ gilləsuyandıqdan sonra içərisi tamamilə münasib qaya daşları ilə döşənib. Skelet və bütün arxeploji materiallar bundan sonra səliqə ilə sərdabəyəqoyulub. Sərdabə tipli bu qəbirdə 19 insan skeleti, 23 saxsı qab, 213 muncuq, 10 ədəd iy başlığı aşkar edilib. İy başlığının 9-ü sümükdən, biriisə daşdan hazırlanıb. Daşdan hazırlanan iy başlığı çox ustalıqla hazırlanıb, üzəri üçbucaq formalı naxışlarla bəzədilib. 10 ədəd iy başlığının birqəbirdə aşkar edilməsi faktı ilk tunc dövrü üçün nadir hadisə hesab edilə bilər. Sərdabədən aşkar olunan skeletlər sağ və sol yanı üstə,yarıbükülü, baş tərəfi divara söykənmiş vəziyyətdə qoyulub.

Torpaq qəbirlər aşkar edilib

Goranboyun Səfikürd kəndində tədqiqatlar aparan Müzəffər Hüseynov sonda onu da bildirdi ki, tədqiqatlar zamanı ilk tunc dövrünə aidkurqanlardan 150-200 metr şimal-şərqdə. son tunc-ilk dəmir dövrünə aid torpaq qəbir də aşkar edilib. Qəbır 80 sm dərinlikdə yerləşməkləşərq-qərb iştiqamətində uzunluğu 2 metr, eni 1 metr yarımdır. Qəbirdən sol yanı üstə qoyulmuş skeletin ətrafında isə 3 saxsı qab, 48 ədəd əqiqmuncuq, 1 ədəd tunc muncuq, 1 ədəd tunq qolbaq, 1 ədəd tunc sırğa, 2 ədəd dəvəgözü kəsici alət askar edilib.

Digər torpaq qəbir Səfikürdün şimal-şərq_tərəfindən aşkar edilib. 2 metr 5 sm dərinlikdə aşkar edilən torpaq qəbir kamerası 160x90sm ölçüdədk. Qəbirdən yarımbükülü vəziyyətdə sağ yanı ustə qoyulan skeletın ətrafindan 3 ədəd saxsı qab, 12 ədəd muncuq, 2 ədəd kəsici alətaşkar edilib. Goranboy rayonu ərazisində, xüsusən Səfikürd kəndi ətrafında aparılan apxeoloji qazıntılar zamanı eneolit, ilk tunc, son tunc- ilkdəmir dövrü mədəniyyətlərinin öyrənilməsi baxımından xeyli nailiyyətlər əldə edilib. Tezliklə nəzərdə tutulan tədqiqatlara vəsait ayrılan kimiSəfikürd kəndində yə rayonun digər istiqamətlərində yeni kəşfiyyat işləri başlanacaq.

11 № 14 (574) DÎPLOMAT 08-14 Aprel, Nîsan, sal. il 2024

# VƏTƏNƏ LAZIMDIR XAN HEYDƏR PAŞA



Mən, Əhmədov Əhməd İsmayıl oğluna (Əhməd Vedili) məxsus olan:

1. Xalqın şairi-Xalqın səsi
2. İrəvanda Xan qalmadı
3. Sözün zamanı,Zamanın sözü
   İndi Nə Var Danışmağa!
4. İrəvanda xan qalmadı,
   Heç bir Müsəlman qalmadı!

Kitablarım 10.06.2021-ci il tarixində dərc olunmuşdur. Ulu Öndərimiz dəfələrlə Qarabağ və Qərbi Azərbaycan barədə, həmçinin İrəvan xanlığı barədə çıxışlarında demişdir, Sizdə çıxışlarınızda həmişə konkret sözünüzü deyirsiniz. Buda mənim kitablarımın məzmunu ilə tam uyğun gəlir.

Mənim sözlərimə:

1. Cənab Ali Baş Komandan!
2. İlhamdan İlham al,ay Vətən oğlu!
3. Qarabağ bizimdir, bizim olacaq! (bu söz müharibədən öncə yazılıb)
4. Qarabağ Azərbaycandır!
5. İrəvana gedək çıxaq, bayrağımızı ora taxaq! mahnıları bəstələnmişdir.

Mahnıları "Youtube" sosial şəbəkəsində "Əhməd Vedili" yazaraq dinləyə bilərsiniz. Məlumat üçün bildirim ki, bundan əvvəl "Mənim İdealım Heydər Əliyev" və "Xalqın oğlu-Xalqın Atası" kitablarım dərc olunmuşdur, eyni zamanda Heydər Əliyevə həsr olunmuş "Heydər Əliyevə Səs Verirəm" və "Əsrə bərabər 30 il" kitablarının redaktoru olmuşam. Ulu Öndərimiz hakimiyyətə gəlmədən öncə mənim onunla görüşlərim olmuş və 1988-ci ildə yazdığım "Mən bu dərdi kimə açım, söyləyim?" şeiri 16.03.1990-cı ildə "Ədəbiyyat və İncəsənət" qəzetində çap olunmuş, 02.09.1992-ci ildə "Şərq qapısı" qəzetində "Heydər Paşa", 11.05.1993-cü ildə "Naxçıvan" qəzetində "Heydər Baba", 26.10.1998-ci ildə "Azərbaycan" qəzetində "Ayıbdır" bundan sonra "Ayıbdır" şeiri "Vətən Səsi", "Dövlətçilik", "Hüquqşünas", "İdeal" qəzetlərində dərc olunmuşdur və bir neçə başqa qəzetlərdə şeirlərimlə Ulu Öndərimizin lehinə çıxış etmişəm.

Hal-hazırda "Azərbaycan Respublikasında Prezident Hakimiyyətinə Dəstək Milli Komitəsinin" Sədriyəm. Eyni zamanda nəzərinizə çatdırmaq istərdim ki, Ulu Öndər, Dahi Lider Heydər Əliyevin 100 illiyinə, Azərbaycan Respublikasının Prezidenti Cənab İlham Əliyevin isə 20 illiyinə ithaf etdiyim "XİLASKAR ATANIN – XİLASKAR OĞLU" kitabım hazırdır və artıq dərc edilmişdir.

### VƏTƏNƏ LAZIMDIR XAN HEYDƏR PAŞA

*(ixtisarla)*

*Heydər baba, xalqımız dar gündədir,*
*Türk oğlunun ümidi bir Səndədir.*
*İrəvan xanlığı yasda-qəmdədir,*
*Sizintək ağıllı, müdrik Baş hanı?*
*Xalqımız istəyir Heydər Paşanı.*

*Xalqımın ümidi Xan Heydər Paşa,*
*Qeyrətli oğullar keçərsə başa,*
*Onda biz gəzərik Təbrizdə qoşa,*
*Zəngəzur, Göyçəyə yollar açılar,*
*Durular-lillənmiş sular açılar.*

*14.11.1988*

Bu şeiri ilk dəfə 12.08.1992-ci ildə Ulu Öndər Heydər Əliyevlə baş tutan görüşümdə oxudum çox bəyəndi və dərc olunmasına razılıq verdi. Bundan sonra 02.09.1992-ci ildə "Şərq qapısı" qəzetində dərc olundu.

### İNDİ NƏ VAR DANIŞMAĞA

*(ixtisarla)*

Qeyrət vaxtı "qeyrət" inin
Göstərmədin qeyrətini,
Kişiyə xas qüdrətini
İndi nə var danışmağa.

"Yaş senzi" nə gəlməyənlər
Heydər qədri bilməyənlər,
Onda cavab verməyənlər,
İndi nə var danışmağa.

Belə dedi Həsən Mirzə,
Kişi gərək desin üzə,
Təlxək lazım deyil bizə,
İndi nə var danışmağa.

"Bəy" danışır, "xan" danışır,
Yerindən qalxan danışır,
Tülküdən qorxan danışır,
Tapıb bizi xam danışır,
İndi nə var danışmağa,
Efirdə əsib-coşmağa,
Bu günə şeir qoşmağa.

### İNDİ NƏ VAR DANIŞMAĞA..!!

*Bu şeir ilk dəfə 10.05.1996-cı ildə bir neçə qəzetdə dərc olunmuşdur.*

Mən bu şeiri 1996-cı ildə akademik, mərhum Aqil Əliyevin ad günündə oxudum. Ulu Öndərimiz və ailə üzvləri, mərhum Cəlal Əliyev, Rəfiqə və Şəfiqə Əliyevalar və möhtərəm Prezidentimiz İlham Əliyev həmin məclisdə idilər. Çox bəyəndilər. İlham Əliyev şəxsən mənim oturduğum masaya yaxınlaşdı, mənim sağlığıma qədəh qaldırdı və mənə təşəkkür etdi. Məni öz qəbuluna dəvət etti. General-polkovnik Bəylər Eyyubov da həmin məclisdə idi. Mən "İrəvanda xal qalmadı" mahnısını sifariş edib oynadım. Sumqayıt şəhər Univermağının müdiri Zaman İsgəndərov və Sumqayıt Maşın Bazarının müdiri, mərhum Sabir Tanrıverdiyev mənimlə "İrəvanda xal qalmadı" mahnısına oynadılar. Ulu Öndərimiz bizi çox diqqətlə dinlədi və alqışladı. Şən və razı baxışları ilə sanki mənə sağ ol dedi.

**Əsl canlı Heydərçi**
**şair Əhməd Vedili**

Lakin, Əhməd Vedili nin bu xidmətlərinə rəğmən hələ də nə Heydər Əliyev təqaüdü, nə də Heydər Əliyevin 100 illiyi mükafatı təqdim olunmayıb.

# Nêçîrvan Barzanî di salvegera Komkujiya Enfalê de bangî Hikûmeta Îraqê kir



Serokê Herêma Kurdistanê di 36emîn salvegera Komkujiya Enfalê de got, "Em careke din bangî Hikûmeta Îraqê dikin ku qurbaniyan tazmîn bike." Îro 36emîn salvegera Komkujiya Enfalê ye, Serokê Herêma Kurdistanê Nêçîrvan Barzanî peyamek belav kir. Serokê Herêma Kurdistanê Nêçîrvan Barzanî di peyama xwe de anî ziman:

"Em îro 36 saliya xemginiya Enfalê û qurbanîdana zêdetirî 182 hezar zarok, mêr û jinên Kurdistanê bi bîr tînin. Ew di yek ji sûc û komkujiyên herî hovane de sala 1988an ji aliyê rejîma wê demê ya Bexdayê ve hatin şehîdkirin û heta demeke dirêj dê encamên wê berdewam bin.

Bi vê minasebetê em wan bi rêz bi bîr tînin û bejna xwe li ber giyanê wan ê pak ditewînin."

Komkujiya Enfalê ji 8 qonaxan pêk hat ku ji 22yê Sibata 1988an û heta 6ê Îlona 1988an berdewam kir. Qonaxa sêyemîn a Enfalê ku 14ê Nîsana 1988an bû û ji ber ku li gorî qonaxên din herî zêde qurbanî û komkujî tê de hat kirin wekî roja Enfalê hat binavkirin. Nêçîrvan Barzanî di berdewamiya peyama xwe de anî ziman: "Di demekê de ku Dadgeha Bilind a Tawanan a Îraqê ev sûc wekî cenosîd nas kiriye jî lê em dubare daxwazê ji Hikûmeta Federal a Îraqê dikin ku erka xwe ya dadwerî û qerebûkirina qurbaniyan di hemû waran de bi cih bîne. Herwiha em tekezî li ser wê yekê dikin ku di hemû waran de xizmetguzariyên baştir ji malbatên qurbaniyên Enfalê re bê kirin û çi destan were ji bo wan divê were kirin."

Nêçîrvan Barzanî li ser lêgerîna hestiyên qurbaniyên Enfalê jî da zanîn: "Em malbatên ezîz ên qurbaniyên Enfalê piştrast dikin ku em dê heta dawiyê lêgerîna cenazeyên şehîdan bidomînin û wan vegerînin hembêza niştiman.

Herwiha em tekezî li ser hewlên xwe yên berfireh dikin ji bo nasandina Enfalê wekî cenosîd li ser asta navneteweyî ku careke din sûcekî wiha li ti cihekî cîhanê dubare nebe."

Nêçîrvan Barzanî di dawiya peyama xwe de got: "Bi vê minasebetê em tekeziyê li ser hevdengiya hemû partî û pêkhateyên Kurdistanê dikin ku mercê parastin û berdewamiya maf û destkeftan, federalî û statuya destûrî ya Herêma Kurdistanê ye."

# İsrail'den İran'ın saldırısına dair açıklama

İsrail kamu yayın kuruluşu KAN'ın ordudan aktardığı bilgiye göre, İran, dün gece yaklaşık 100 balistik füze, 30 seyir füzesi ve 160 kamikaze İHA ile



İsrail'e saldırı düzenledi. İran Devrim Muhafızları Ordusu, İran topraklarından İsrail'e kamikaze insansız hava araçları ve füzelerle saldırı gerçekleştirildiğini duyurdu. Saldırının, Suriye'deki İran konsolosluğu saldırısına cevap olarak düzenlendiği belirtildi. İran, bazı askeri hedeflerin vurulduğunu, İsrail ise saldırıların çoğunun hava savunma sistemlerince önlendiğini ancak güneydeki bir askeri üsse füze isabet ettiğini açıkladı. İsrail kamu yayın kuruluşu KAN'ın ordudan aktardığı bilgiye göre, İran, dün gece yaklaşık 100 balistik füze, 30 seyir füzesi ve 160 kamikaze İHA ile İsrail'e saldırı düzenledi. İran'ın saldırısına eş zamanlı olarak, İsrail'e Lübnan'dan da yaklaşık 40, Yemen ve Irak'tan da bireysel olarak füze ve İHA fırlatıldığı belirtildi.

İsrail ordusu, savaş uçaklarının ABD öncülüğündeki diğer ülkelerle birlikte İsrail toprakları dışında "20'den fazla seyir füzesini imha ettiğini" iddia etti. Haberde, (yapılan saldırılarda) İsrail'e herhangi bir seyir füzesinin ulaşmadığı, isabet eden balistik füzelerin ise altyapıya hafif hasarlar verdiği kaydedildi.

# Myles Caggins: Petrol ihracatının yeniden başlaması için Kongenin Irak'a baskı yapmasını talep ettik



Kürdistan Petrol Endüstrisi Birliği (APIKUR) Sözcüsü Myles Caggins, ABD Kongresinden Irak Hükümetine Kürdistan Bölgesi'nden petrol ihracatını yeniden başlatmaya baskı yapmasını talep ettiklerini söyledi.

Kurdistan24'e konuk olan Sözcü Myles Caggins, "Irak Başbakanı Sudani'nin ABD ziyareti ve Başkan Joe Biden ile görüşmesinin, Irak-Türkiye petrol boru hattı üzerinden Kürdistan petrol ihracatının yeniden başlamasına vesile olmasını umuyoruz." dedi.

Iraklı ve ABD'li liderlerin, Irak-Türkiye petrol boru hattı üzerinden (Kürdistan Bölgesi) petrol ihracatının yeniden başlatılması yönündeki açıklamaları konusunda oldukça iyimser olduğunu belirten Caggins, "Biz APIKUR olarak Kongre üyeleriyle iyi bir temas halindeyiz. Petrol ihracatının yeniden başlatılmasına yönelik Kongrenin bazı üyeleri aracılığıyla Beyaz Saray'a mesajımızı ilettik. Petrol ihracatının yeniden başlaması için Kongrenin Irak'a baskı yapmasını talep ettik." ifadelerini kullandı.

"Kongredeki dostlarımız ABD ile Kürdistan Bölgesi arasında ortaklığın önemini anlıyorlar." diyen APIKUR Sözcüsü Caggins, "ABD'ye vergi ödeyen şirketler Kürdistan Bölgesi'nde petrol sektörü ve diğer sektörlere 300 milyon dolar değerinde yatırım yaptı. Irak Petrol Bakanlığı ve Kürdistan Bölgesi Doğal Kaynaklar Bakanlığının yanı sıra uluslararası petrol şirketleriyle, petrol ihracatının yeniden başlamasını kolaylaştıracak birçok yeni anlaşmanın yapılması yönünde görüşmeler yapılıyor." dedi.

Paris'teki Uluslararası Tahkim Mahkemesinin Kürdistan Bölgesi'nden petrol ihracatına ilişkin 25 Mart 2023 tarihli kararının ardından Ceyhan limanından yapılan petrol ihracatı askıya alınmıştı.

